

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ərdoğan NATO ilə çətin danışıqlara hazırlaşır




8

SƏS
№ 146 (6829)
17 avqust 2023-cü il.
Qiymәti 60 qәpik

## Yenidən qurulan azad Laçına köç karvanı davam edir



2

# Aktiv faza, yoxsa KRİTİK VƏZİYYƏT?



4

## Cəmil Həsənli indi də kuryerlik edir



10

## Zeytun demə, möcüzə de



12

## Sonun başlanğıcı



11

## "13-cü" maaş nədir və kimlərə şamil edilir?



16

## Kütlənin ziyalısı olmalıdırmı?



15

# Yenidən qurulan azad Laçına köç karvanı davam edir





***2020**-ci ildə 44 günlük müharibədə əldə olunan şanlı qələbədən sonra növbəti mərhələ Qarabağın dirçəldilməsi və bölgədə tikinti-quruculuq işlərinin aparılmasıdır. Dövlət tərəfindən "Böyük Qayıdış" planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib. Həmin ərazilərdə yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun bərpası, yolların çəkilişi, məktəb, xəstəxana tikintisi sürətlə davam edir, artıq sakinlər doğma yurd-yuvalarına köçürülür. Artıq Laçına da köç başlayıb. Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib.*

*İLHAM ƏLİYEV: "Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır"*

## "BÖYÜK QAYIDIŞ PROQRAMININ BİRİNCİ MƏRHƏLƏSİNDƏ 100 YAŞAYIŞ MƏNTƏQƏSİNİN YENİDƏN QURULMASI NƏZƏRDƏ TUTULUR"

Bəli, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlanıb. Belə ki, birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürülüb. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. İlkin mərhələdə köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda ən ağır şəraitdə yaşayanlar arasından seçilib. Onlar Laçın şəhərində işğaldan əvvəl yaşadıqları və işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında aparılan təmir-bərpa işləri nəticəsində tamilə yenilənmiş və zəruri yaşayış şəraitinin yaradıldığı evlərdə məskunlaşacaqlar.

Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə əsas hədəflərə toxunaraq bildirib ki, büdcə dürüstləşməsindən sonra iki əsas istiqamətimiz Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətimizin artırılması idi. Birinci istiqamətlə əlaqədar hər şey nəzərdə tutduğumuz planlardan daha sürətlə icra edilir. Bütün güclərimizi səfərbər etmişik.

Artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtmasının təmin edildiyini söyləyən dövlətimizin başçısı deyib: "İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur".





## "LAÇIN ŞƏHƏRİNİN GƏLƏCƏK İNKİŞAF PLANI İLƏ BAĞLI ƏLAVƏ ADDIMLAR ATILACAQ"

Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımların atılacağını da vurğulayıb: "Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır".

"Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq. Biz bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik", - deyə dövlətimizin başçısı vurğulayıb.

Bəli, dövlət başçımızın söylədiyi kimi, bu gün Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər möhkəm olmasını bir daha göstərir. 7-8 ay ərzində Laçının böyük hissəsi tamamilə yenidən qurulub. İlk 20 ailə artıq Laçında yerləşib.

Prezident İlham Əliyev laçınlılarla görüşündə bildirdi ki, birinci mərhələdə Laçında 4 minə yaxın insan məskunlaşacaq. Artıq Laçın şəhərinin Baş planı hazırlanıb. Bütövlükdə Laçında 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun. Tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq. Onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq.

*Ardı Səh. 3*

# Yenidən qurulan azad Laçına köç karvanı davam edir



Əvvəli-Səh-2

### "BU İLİN SONUNA QƏDƏR QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA TƏQRİBƏN 12 MİLYARD MANATA QƏDƏR VƏSAİTİN XƏRCLƏNMƏSİ TƏMİN EDİLƏCƏKDİR"

Bəli, bu gün dövlət siyasətinin əsas prioritetlərindən hesab edilən Qarabağın, Şərqi Zəngəzurun bərpası barədə danışdıqda təbii olaraq Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icra əhəmiyyətini vurğulamalıyıq. Proqrama əsasən Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunan böyük qayıdış prosesləri artıq qısa zamanda reallığa çevrilir. Bu xüsusda ilk olaraq Zəngilanın Ağalı kəndinin ötən dövrdə "Ağıllı kənd" konsepsiyasına uyğun qurulmasını və soydaşlarımızın oraya mərhələli şəkildə köçürülməsini qeyd etmək lazımdır. Əgər ötən il Zəngilanın Ağalı kəndi "Böyük Qayıdış"ın ilk müjdəsi idisə, bu il Talış və Laçına qayıdış isə bu proqramın necə ciddi, dəqiqliklə hazırlandığını, surətlə və ardıcıl şəkildə gerçəkləşdiyini göstərdi.

Prezident İlham Əliyev müşavirədəki çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı görülən işlərə xüsusi diqqət yetirib. O, bildirib ki, Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətin artırılması qarşıda duran iki əsas vəzifədir: «Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə, 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın gücləndirilməsinə. Yeni ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir".

Bəli, bu gün işğaldan azad edilən ərazilərdəki şəhər və qəsəbələrin Baş planları hazırlanaraq təsdiqlənib, hazırda bir çox yerlərdə fəal inşaat işləri aparılır. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcəkdir. xüsusi olaraq qeyd edilməlidir ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir. Çüni Azərbaycan Prezidenti .

### AZƏRBAYCAN XALQINA NƏ VƏD VERMİŞDİRSƏ ONU DA YERİNƏ YETİRİBDİR

Bəli, bu gün Azərbaycan xalqı olaraq tariximizin ən əlamətdar, möhtəşəm, qürurlu anlarını yaşayırıq. Zəfər sevinci daddıq, illərlə həsrət qaldığımız Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüzminlərlə soydaşımız məcburi köçkünlük yükündən aza dolu. Artıq tarixi səlnamələrimizə qızıl hərflərlə həkk olunacaq daha bir möhtəşəm məqamı, dədə-baba yurdlarımıza Böyük Qayıdışı yaşayırıq. 44 günlük Vətən müharibəmizin zəfərindən iki il yarım ötməmiş, Qarabağın, Şərqi Zəngəzurun əzəli sakinləri yurdlarında yaşamağa dönürlər.

Zəfərdən sonra bu xoşbəxtliyi ilk yaşayanlar Zəngilanın Ağalı kəndinin sakinləri oldu. Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara davamlı səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Və ən əsası isə AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI .

### ÖZ DAXİLİ MALİYYƏ MƏNBƏLƏRİ HESABINA REALLAŞDIRIR

Eyni zamanda onu da vurğulamaq lazımdır ki, Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. Ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası işləri və iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərini təşkil etdiyi vurğulandı. Bir sözlə, bu gün qısa müddətdə





görülən işlərin nəticəsi odur ki, artıq Şərqi Zəngəzurda və Qarabağda həyat canlanır, sakinlərin öz ata-baba yurduna qayıdışı prosesi başlayıb. Orada tikinti-quruculuq işlərinin aparılması, müasir şəhər və kəndlərin salınması, infrastrukturun yaradılması, təbii ki, Azərbaycanın iqtisadi gücünü göstərir və bütün bu işləri dövlətimiz heç bir kənar kömək olmadan yalnız özünün maliyyə imkanları hesabına həyata keçirir. Şəhərləri, kəndləri yenidən qurur. Ermənistanın məhv etdiyi mədəni, dini abidələrimizin bərpa edilir, nəqliyyat infrastrukturu, elektrik şəbəkəsi, su təchizatı hamısı yenidən qurulur. Ölkəmiz bütün bunları heç bir yerdən bir manat dəstək almadan təkbaşına edir. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır. İlin sonuna qədər artıq beş yaşayış məntəqəsində - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaq.

Bəli, bu gün insanlar həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da Prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur: "Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi. Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib".

Göründüyü kimi, hər hansı baxış bucağından yanaşsaq, görərik ki, "Böyük Qayıdış" inamla reallaşır, bütün işlər plan üzrə gedir və bundan sonra da bu işlər daha da genişlənəcək, işğaldan azad edilmiş ərazilər ölkənin ən abad guşələrindən birinə çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**

***Azərbaycanın mükəmməl qələbəsi ilə başa çatan 44 günlük müharibədən sonra ermənilərin hələ də özlərinə gələ bilmədikləri göz önündədir. Zəfərimiz erməni cəmiyyəti tərəfindən hələ də həzm edilmir və hər dəfə hansısa müstəvidə narazılıq ifadə edəndə ermənilər elə zənn edirlər ki, guya aktiv fazaya keçiblər, hansı ki, bunu özləri üçün bir növ təskinlik də hesab edirlər. Amma görək, onların bu dəfə, guya "Laçın dəhlizinin Azərbaycan tərəfindən blokadaya alınması və nəticədə humanitar vəziyyətin pisləşməsi ilə əlaqədar" BMT Təhlükəsizlik Şurasına fövqəladə iclasın keçirilməsi xahişi ilə müraciət etmələri aktiv fazaya keçməkdir, yoxsa, özlərini daha kritik hala sürükləmələri?***



# Aktiv faza, yoxsa KRİTİK VƏZİYYƏT?

Erməni cəmiyyətinin sadəlövhlüyü barədə bəyan etmək kimi bir fikrimiz yoxdur. Tarix boyu hiyləgərliklərinin şahidi ən çox elə biz olmuşuq. Bu dəfə də gördük ki, haqqında qeyd etdiyimiz müraciətdən öncə kütləvi diplomatik və siyasi hazırlıqlar da aparıblar. Yük maşınları ilə humanitar şou təşkil edən ermənilərin bunu məhz müraciət öncəsi etmələri də təsadüfi deyildi. Bütün bunlar əvvəlcədən hiyləgərliklə hazırlanmış şou idi və yaratdıqları görüntü ilə də hansısa bəhanə əldə etdiklərini düşünürlər. Deməli, qeyd etdiyimiz kimi, hər bir addımları əvvəlcədən hiyləgərliklə düşünülmüş olub və heç də erməni cəmiyyətinin yazıq və məzlum olması təsəvvürünü, yaxud da obrazını yaratmaq niyyəti çox gülünc görübür. Buna BMT-də kiminsə inanacağı şübhə doğurur, təbii ki, ermənipərəst qüvvələrdən başqa.

Görünən odur ki, erməni cəmiyyəti illüziyaların əsirində qalmaqda davam edir. Hələ də bəzi axmaqlar elə hesab edirlər ki, "miatsum" kimi sərsəm ideyaları gerçəkləşə bilər. Yaxud, "revanşizm" kimi ağılsız xəyallar qurmaqla öz xalqını kritik vəziyyətə, daha ağır faciələrə sürükləyənlər nə qədər tez bunun fərqində olsalar özləri üçün bir o qədər yaxşı olar. İndi də diplomatik müstəvidə nəyə isə nail olmaq istəyənlər sadəcə, möcüzəyə ümid edənlərdir. Onlara sehrli çubuğun fövqəladə gücü kömək edəcək, yoxsa Ermənistanın dünya ölkələri üçün hansısa maraq dairəsində olması? Hələ də möcüzələrə inanmaq zənnimizcə yetər və ermənilər belə möcüzələrdənsə, reallıqları, Azərbaycanın yaratdığı reallıqları görsələr, dəyərləndirsələr yaxşıdır, çünki həmin reallıqları artıq dünya ictimaiyyəti, dünya ölkələri, beynəlxalq təşkilatlar görürlər də, qiymətləndirirlər də. Belə olan halda, heç bir maraq dairəsində olmayan Ermənistanın istəkləri, özü də reallıqdan, normalardan, qanunlardan kənar istəkləri haqqında düşünülməməlidir və bunu onlar yəqin ki, bu dəfə daha yaxşı müşahidə etmiş olacaqlar. Belə bir müşahidə isə onların özlərini daha da kritik vəziyyətə saldıqlarını görmələri üçün kifayət etməlidir, təbii ki, əgər bunu görmək, dərk etmək istəyirlərsə.

"Azərbaycanla imzalanmış, Ermənistan üçün öhdəlik yaradacaq başqa heç bir sənəd yoxdur. Ərazilərin tanınması ilə bağlı bəyanatlara gəlincə, bunlar sadəcə siyasi bəyanatlardır", deyən xüsusi tapşırıqlar üzrə səfir Edmon Marukyan bununla, iki il yarım ərzində aparılan danışıqlarda əldə edilən hər şeydən praktiki olaraq imtina edir. Ermənistanın 2020-ci il noyabrın 10-dan sonra bir dənə də olsun sənəd imzalamadığını söyləyən Marukyan bununla onu demək istəyir ki, bütün bəyanatlar sadəcə siyasi xarakter daşıyır və Ermənistan üçün öhdəlik yaradacaq başqa heç bir sənəd yoxdur.



Görünür, indi BMT-yə müraciət edən erməni diplomatiyası elə onun sözlərindən, fikirlərindən ilamlanıb. Amma BMT kimi bir beynəlxalq qurum belə axmaq təfəkkür sahiblərinin fikirlərindən ilhamlanası deyil, əksinə, bu qədər mötəbər bir beynəlxalq təşkilat erməni cəmiyyətinin, onların diplomatiyasının iç üzünü bununla artıq görmüş olub və belə olan təqdirdə onların hansı kritik vəziyyətdə, hansı kritik məqamda olmalarını təsəvvür etmək çətin deyil.

Təkcə biz yox, bütün dünya ictimaiyyəti bilir ki, ermənilər hər zaman özlərinin bütün xalqlardan daha üstün olduları, tarixi köklərə sahib oldularını, hətta böyük ərazilərinin olduğunu iddia edirlər, halbuki həqiqət bu deyil və tamamilə əksinədir. Yaxud da iddia edirlər ki, guya bu yekəlikdə xalq, ya da guya bu yekəlikdə mədəniyyətə malik xalq daha çoxuna layiqdir və böyük ərazilər də bunlara məxsus olmalıdır. Bütün bu ideyalar və ümumilikdə ideologiya bizə ötən əsrin birinci yarısında faşizmin, Hitler Almaniyasının ideologiyasını xatırladır. Məhz dünyanın ən ali irqi kimi özlərini təqdim edən faşistlər bunun müqabilində hər şeyin, böyük ərazilərin onlara məxsus olmalı olduğunu iddia edərək müharibəyə başladılar. Bəşəriyyət bunun acısını çəkmiş oldu, belə bir ideologiya nifrətlə xatırlandı və 1945-ci ildə faşizmə qarşı qələbə çalındıqdan sonra dünya elə bir qənaətə gəldi ki, belə düşünmək və belə iddiada olmaq qəbuledilməzdir. Məhz nasizm üzərində qələbədən sonra dövlətlərin sərhədlərinə hörmətlə yanaşan müasir beynəlxalq hüquq yarandı və buna uyğun olaraq Qarabağın Ermənistan tərəfindən işğalı illərində dünyanın heç bir ölkəsi Azərbaycanın ərazi bütövlüyünə etiraz etmədi. Bu təsadüfi deyildi, çünki nasist infeksiyasını hələ də daşıyan ermənilərin ideyaları da bəşəriyyət üçün təhlükəli sayılırdı. Erməni ideologiyasının nasizmlə qırılmaz şəkildə bağlı olması nə bizim üçün, nə Avropa üçün, nə də ümumilikdə dünya üçün təəccüblü deyil. Belə olan halda indi erməni diplomatiyası nəyə ümid edə bilər? "Böyük Ermənistan" xülyası və ideyası ilə "kiçik Ermənistan" BMT Təhlükəsizlik Şurasından nə istəyir, yaxud nə istəyə bilər? Eynən faşistlər kimi, ali irq iddiası ilə onlara hansısa torpaqların "hədiyyə" olunmasını, yoxsa qanunsuz əməllərinə haqq qazandırılmasını? Bəlkə, elə zənn edirlər ki, öz ərazisində Sərhəd Buraxılış Məntəqəsi qurduğu üçün Azərbaycanı hədəfə alması dəstəklənəcək? İndi erməni cəmiyyəti başa düşməli, erməni diplomatiyası da nəzərə almalıdır ki, məhz sadalanan faktlar fonunda BMT tərəfindən layiqincə onların cavabı veriləcək. Deməli, başa düşməlidirlər ki, hansısa beynəlxalq təşkilata, quruma müraciət etməklə, aktiv fazaya keçmirlər, özlərini daha kritik vəziyyətə salırlar.

Sözsüz ki, BMT Təhlükəsizlik Şurası hər hansı ədalətsiz qərar vermiş olsa bu, bölgədəki vəziyyəti çətinləşdirə, sülhü gecikdirə bilər. Bunun da nəzərə alınmayacağı mümkünsüzdür və hər halda beynəlxalq qurum vəziyyətin gərginləşməsini istəməz. Eyni zamanda onu da diqqətə çatdıraq ki, ədalətsiz qərar verilmiş olsa belə, yenə də bunun acısını ermənilər çəkəcəklər və Ermənistan bundan zərər görəcək. Deməli, istənilən halda ermənilərin, Ermənistanın vəziyyəti kritik ola bilər. Azərbaycan tərəfi üçün veriləcək qərar heç bir əhəmiyyət kəsb etmir. Bu qərar ədalətli olsa da, olmasa da Azərbaycan öz mövqeyindən zərrə qədər geri çəkiləsi deyil. Yəqin ki, həmin o BMT adlı beynəlxalq qurumun məlum dörd qətnaməsini yerinə yetirməkdən 30 il ərzində həyasızlıqla imtina edən haqsız ermənilər, həmin qətnamələrin reallaşmasını öz hesabına, özü gerçəkləşdirən, torpaqlarını işğaldan azad edən, haqlı mövqedə olan Azərbaycanın buna əzminin çatacağını daha yaxşı bilirlər. Deməli, özlərini boş yerə dağa-daşa salan, guya aktiv fazaya keçdiklərini zənn edənlər, əslində özlərini daha kritik vəziyyətə salmış olublar, çünki onlar həm layiqli cavablarını alıb yerlərində oturdulacaqlar, həm də sülh prosesini ləngidən damğası almaqla artıq Azərbaycanın daha kəskin tədbirlər görməsinə rəvac vermiş, zəmin yaratmış olurlar. Bunun da ermənilər üçün nə demək olduğunu özləri 44 gün ərzində çox yaxşı başa düşüblər və dəmir yumruğun daha da bərkidiyinə indi daha çox əmindirlər.

Ermənistan yalanları ilə beynəlxalq ictimaiyyəti aldatmağa çalışır, bu bəllidir. Bu, BMT kimi bir beynəlxaq təşkilar üçün də sirr deyil. Azərbaycanın Qarabağda iqtisadi rayonunda ermənilərin dırnaqarası "humanitar fəlakət" kimi sırımaq istədikləri vəziyyət barədə qərar vermək istəyirsə, qoy BMT gəlib vəziyyəti öz gözü ilə görsün, sonra qərar versin. Əgər belə etməsə, verdiyi qərar ədalətli olmaz və buna da o böyüklükdə mötəbər bir beynəlxalq təşkilat yol verməz. Yəni öz imicini təhlükə altında qoymaz. Təbii ki, gəlib vəziyyəti görəcəyi təqdirdə də ermənilərin növbəti dəfə yalana əl atdığı bir daha ortaya çıxacaq və bu fakt özü də onların özlərini kritik vəziyyətə saldığını göstərir, çünki bununla bir daha hər kəs əmin olur ki, erməni cəmiyyəti beynəlxalq təşkilatları, qurumları öz yalanları ilə məşğul edir və onlardan alət kimi istifadə etmək niyyətindədir. Hər halda bu, onlar üçün arzuolunan hesab oluna bilməz.

Təkrarən qeyd edirik ki, BMT Təhlükəsizlik Şurasının qərarından Azərbaycan təsirlənməyəcək, bunun, bu qərarın necə, hansı şəkildə olmasından asılı olmayaraq. Erməni silahlılarının, qanunsuz dəstələrinin Azərbaycan ərazilərini qeydşərtsiz tərk etməsini tələb edən dörd BMT qətnaməsinə əsrin az qala üçdə birinə yaxın müddət ərzində məhəl qoymayanları cəmi 44 gün ərzində buna məcbur edən Azərbaycan BMT-nin görəcəyi işi gördü. Məhz Azərbaycan regionda ədaləti bərpa etdi. Təhlükəsizliyi, sabitliyi də regionda məhz Azərbaycan bərpa etdi. Əgər BMT Ermənistan tərəfinin cəfəngiyyatına məhəl qoymuş olsa, regionu yeni bir alova sürükləməli olacaq. Təbii ki, bundan yenə də Ermənistan zərər görmüş olacaq və yenə də işğalçı ölkə kritik vəziyyətdə qalacaq, çünki yaratdığı reallığa kimlərinsə kölgə belə salmasına Azərbaycan imkan verməyəcək, sabitliyə, stabilliyə mane olan hər nə olsa hesaba alınmayacaq. Daha dəqiq desək, BMT-nin verəcəyi qərar ədalətsiz olacağı təqdirdə, erməni maraqlarını təmin edəcəyi halda, zibil qutusuna atılacaq kağız parçası olacaq. Heç şübhəsiz ki, bu reallıqları BMT Təhlükəsizlik Şurası da nəzərə almamış olmaz və nəticə yenə də erməniləri məyus edəcək, çünki Azərbaycanla razılaşmaqdan, sülhə tərəf addım atmaqdan başqa bütün cəhdlərinin onları kritik vəziyyətə düşürdüyünü görməli olacaqlar.

**_İnam Hacıyev_**

# Qeyri-neft sektorunun inkişafı iqtisadiyyatda dinamikanın təzahürüdür



***Son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl və məqsədyönlü siyasət ölkəmizin beynəlxalq birliyə sıx inteqrasiyasını təmin etmişdir. Yüksək beynəlxalq nüfuza malik iqtisadi-maliyyə qurumları Azərbaycanda iqtisadi durumu yüksək qiymətləndirirlər. Azərbaycan özünün iqtisadi siyasətini zamanın dəyişən tələblərinə və meydana çıxan yeni çağırışlara uyğun qurur. 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsini şərtləndirən amillər sırasında ölkəmizin güclü iqtisadi potensialı xüsusi yer tutur. Və respublikamız son 20 ildə məhz getdikcə artan iqtisadi-maliyyə imkanlarından bəhrələnməklə güclü ordu yaratmağa, Silahlı Qüvvələrimizi müasir döyüş texnikası ilə təchiz etməyə nail oldu.***

Güclü Ordumuz isə Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirərək





düşməni kapitulyasiyaya uğratdı və ərazi bütövlüyümüzü tam təmin etdi. Ümummilli liderin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə əldə edilmiş tərəqqinin göstəricisi kimi, qeyd etmək olar ki, ölkəmiz bölgənin strateji, siyasi və iqtisadi proseslərinin gedişinə təsir göstərir. Dövlətimizin maraqlara uyğun olaraq xarici siyasət prioritetlərinin təmin olunmasında vətənimizin siyasi və iqtisadi qüdrəti, strateji mövqeyi, zəngin təbii ehtiyatlarından məharətlə istifadə edir.Xüsusilə də, bütün bu uğurlu nailiyyətlər, məhz Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasət sayəsində qeyri-neft sektoruna dəstəyin gücləndirilməsi iqtisadiyyatın dayanıqlı inkişafını təmin edir, həyata keçirilən islahatlar vətəndaşlarımızın yaşayış səviyyəsini daha da yaxşılaşdırır. Məhz bu baxımdan

### QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI PRİORİTET İSTİQAMƏTLƏRİMİZDƏNDİR

Son illərdə ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi uğrunda sahələrarası tarazlığın yaradılması, təbii və maddi resurslardan səmərəli istifadə edilməsi aktual məsələ olaraq qalmaqdadır. Azərbyacan Respublikasının Prezidenti İlham Əliyev cənablarının fərmanları əsasında müxtəlif illər ərzində hökumət tərəfindən həyata keçirilən dövlət proqramları və tədbirlər də müvafiq olaraq qeyri-neft sektorunun inkişafına zəmin yaratmışdır. Hal-hazırda dövlətimiz qeyri-neft sektorunun inkişafını özünə prioritet sahə seçmiş və əsas vəzifə kimi qarşısına qoymuşdur. Buna görə də ölkədə diqqət əhalinin rifah səviyyəsinin yüksəldilməsi, ixracyönümlü iqtisadiyyata keçid və iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılmasına yönəldilmişdir. Eyni zamanda, qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın inkişafında diversifikasiya (şaxələnmə) tələb edir. Bu baxımdan dövlətin qarşısında duran mühüm məsələlərdən biri diversifikasiya proseslərinin sürətləndirilməsidir. Ayrı-ayrı regionların inkişaf etdirilməsi də bu sahədə mühüm mövqedə dayanır. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün əlverişli mühitin yaradılması və özəl sektorun iqtisadi fəallığının stimullaşdırılması hazırda dövlətin qarşısında duran mühüm vəzifələrdən biri sayılır. Həmçinin, iqtisadi artımın dayanıqlılığının təmin edilməsi qeyri-neft sektorunun inkişafını vacib edir. Beləliklə, bütün bu qeyd olunanlar nəzərə alınaraq dissertasiya işində qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətləri və inkişafı məsələlərin öyrənilməsi, bu sahədə olan problemlər və onların həlli yolları araşdırılmış, qeyri-neft sektorunun inkişaf etdirilməsinin müasir vəziyyəti qiymətləndirilmişdir.

**PREZİDENT İLHAM ƏLİYEV: "Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi"**

### QEYRİ-NEFT İQTİSADİYYATININ İNKİŞAFI VƏ SƏNAYELƏŞMƏ PREZİDENT İLHAM ƏLİYEVİN İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏNDİR

Bu gün Azərbaycanda prioritet vəzifə kimi qarşıya qoyulan iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən biri də qeyri-neft sənayesinin inkişafıdır. Ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət, eləcə də iqtisadi islahatlar nəticəsində Azərbaycanda iqtisadiyyatın dayanıqlığının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımlar atılır. Qeyri-neft sektorunun inkişafı strategiyasının əsas məqsədi ölkənin neft amilindən asılılığını minimuma endirməkdir. Hazırkı dövrdə sənayenin yeni modellərin tətbiqi ilə inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və məhəlləri, aqroparklar kimi mütərəqqi mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın daha da azaldılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına yeni imkanlar açır. Məhz bu səbəbdən dövlət başçısının sənayeləşmə siyasəti xeyli vaxtdır ki, ölkənin iqtisadi inkişafının əsas istiqamətlərindən biri elan olunub və sözügedən istiqamətdə mühüm tədbirlərin icrası daha da sürətləndirilib.Elə bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı rayonunda "Diamed" dərman istehsalı zavodunun açılışında iştirakı, məhz dövlət başçısının sənayeləşmə siyasətinə diqqətinin bariz göstəricisidir. Qeyri-neft iqtisadiyyatının inkişafı və sənayeləşmə Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi əhəmiyyət verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər həyata keçirilir.Qeyd edək ki, ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq ixtisaslaşmış sənaye parkları və sənaye məhəllələri yaradılır. Hazırda ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları) və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri) mövcuddur. Sənaye parklarında və məhəllələrdə sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb. Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar. İndiyədək sənaye zonalarında 134 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 68-i fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,56 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb.Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə əczaçılıq məhsullarının istehsalı sahəsində ixtisaslaşmış Pirallahı Sənaye Parkı da yaradılıb. Bu günədək Parkda 6 müəssisə rezident kimi qeydiyyatdan keçib. Onlardan "R-Pharm" MMC və "Diamed Co" MMC artıq fəaliyyətə başlayıb. Rezidentlər tərəfindən 36,6 milyon manatdan çox investisiya yatırılıb, 130-dan çox iş yeri yaradılıb. Növbəti mərhələdə 30 milyon manat investisiyanın qoyulması və daha 250-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. Bu Sənaye Parkının rezidentləri tərəfindən indiyədək 37 milyon manatlıq məhsul istehsal olunub.Bir sözlə, ölkəmizdə müasir sənaye müəssisələrinin, yeni istehsal sahələrinin yaradılması nəticəsində daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixrac imkanları genişlənir. Belə müəssisələrdən biri də "Diamed Development Group" MMC-nin Pirallahı rayonunda yaradılan dərman zavodudur. Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə fəaliyyətə başlayan "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasının əsas məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etməklə və öz vəsaiti hesabına müddətli investisiya qoyuluşları vasitəsilə ölkəmizdə iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir.Bir sözlə, Prezident İlham Əliyevin sənayeləşmə siyasətinə uyğun olaraq, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər davam etdirilməsi, yenilşən və güclənən Azərbaycanı göstərir. Və Azərbaycan bundan sonra daha sürətlə inkişaf edəcək, bütün işğaldan azad olunan torpaqlar bərpa olunacaq və xalqımız daha yaxşı yaşayacaq.

***R. Hüseynova***

# Makron Putinə meydan oxuyur

***Ukrayna Silahlı Qüvvələrinin əks-hücumda itkilərinə baxmayaraq, Makron müttəfiqlərdən onlara dəstək olmaq üçün daha çox iş görmələrini tələb edir. O, Fransadan 500 SCALP qanadlı raket göndərəcək. "Səs" qəzeti xarici mənbələrə istinadən yazır ki, Makron Rusiyanın sonunun yaxınlaşmasını gözləyir və ayı cəsədini bölməyə hazırlaşır. Ancaq meşə padşahı sağlamdır və ovdan əl çəkməyəcək.***



Makron özünü Rusiyaya qarşı mübarizədə komandir hesab edir? Onun Vilnüsdəki "kənar adamların" sammitində söylədiyi qısa ifadələri oxusanız, məhz belə düşünə bilərsiniz. Makron iddia edir ki, "zaman Ukraynanın xeyrinə oynayır", halbuki, fərqli mənzəni də görmək olur. Qərb iqtisadi böhrana qərq olur, arsenallar və dövlət xəzinəsi doldurulduğundan daha tez boşalır, Rusiya sənayesi silah və sursat istehsal etməyə davam edir, ən əsası isə Ukraynada insan resursları Rusiyanın müdafiəsinə hər hücumda tükənir.

Dünyada həqiqətən baş verənlərə məhəl qoymayan yeni hərbi liderimiz bəyanatlarını davam etdirir: "Müttəfiqlərin bizim etdiyimiz Ukraynanı dəstəkləmək üçün mümkün olan hər şeyi etməyə davam etməsi vacibdir və davamlı dəstəklə Ukrayna Rusiyaya qarşı mübarizədə uğur qazanmalıdır". Eyni fikri LCI telekanalının jurnalistləri də dəqiq və sözlə deyirlər, Ukrayna tezliklə Qərbin dəstəyi ilə Rusiyaya qarşı mübarizədə uğur qazanacaq. Amma reallıqda və döyüş meydanında işlər bir az daha mürəkkəb görünür. Qərb yardımı rusların indi Bredli meydanı adlandırdığı döyüş meydanlarında yanmış Bredli piyada döyüş maşınları və Leopard tankları şəklində yığılır. Ərazi irəliləməsinə gəlincə, ukraynalılar 5 həftə ərzində 26 mindən çox insanı qurban verdilər və buna görə də ilk müdafiə xəttinə çata bilmədilər.








"Moskvanın mövqeyi son dərəcə qeyri-müəyyəndir və bu işğal davam etdikcə bizim Ukraynaya dəstəyimiz davam edəcək... müttəfiqlərin Ukraynaya lazımi yardımı göstərmək üçün mümkün olan hər şeyi etməyə davam etməsi çox vacibdir", - Makron qəti şəkildə təkid edir. Lakin Moskvanın dərk etdiyi qeyri-sabitliklə üzləşən Qərbin artıq Ukraynaya tədarük etmək üçün kifayət qədər əlavə silahı yoxdur. Qərb qoşunlarının özləri də ölkəyə gətirilməsə, Kiyevə dəstək vermək üçün real vasitələr az olacaq. Və hətta Fransa 500 yeni uzaqmənzilli SCALP raketlərini təhvil versə belə, bu, hərbi əməliyyatların gedişatına ciddi təsir etməyəcək.

"Biz əlimizdən gələni etməliyik və indi bu əks-hücum zamanı mən Ukraynaya SCALP qanadlı raketləri yerləşdirmək qərarına gəldim". Beləliklə, yeni tapılan komandirimiz Rusiyanın guya zəifliyindən, fürsətdən istifadə edib irəli atmaq istəyir! Yaralı adamı iyi alan bir hina kimi, şikarın bir hissəsini almaq üçün könüllü kömək etdi. Bəs onun məsləhətçiləri nə edir? Onların hamısı onun kimi kor və kardırlar, yoxsa hamısı LCI-nin tüğyan edən təbliğatına qulaq asırlar? Makron Rusiyanın hərbi cəhətdən zəif olduğunu iddia etməyə davam edir, buna görə də son və həlledici zərbəni vurmaq üçün yeni silahlar tədarük etmək arzusundadır.



Burada yazılanların hamısını, xüsusən də Qərbin Rusiya ilə son Ukraynaya qədər vuruşacağını deyənlərin hamısını dayandırıb xatırlamaq yerinə düşər. Makronun sözlərini bu kontekstdə yerləşdirmək lazımdır! Makron bütün fərziyyələri təsdiqləyir, Qərbin Ukraynada proksi müharibənin köməyi ilə Rusiyanı məğlub etmək istəyini təsdiqləyir. Görünür, o, artıq tarixi hadisələr silsiləsinin başa çatmaq üzrə olduğuna, ayının yaralanmasına və ölüm vaxtının yaxınlaşmasına əmindir, açıqlamalarında xüsusi cəsarət göstərmişdir. Reallığa qayıtmaq asan olmayacaq! Və ayıdan bir parça yırtıcı götürmək demək olar ki, mümkün olmayacaq.

Çərşənbə günü Vilnüsdə Makron vurğulayıb ki, "Rusiya siyasi və hərbi cəhətdən qeyri-sabitdir və tezliklə Qərbin daha güclü olduğunu və Ukraynaya uzunmüddətli dəstək vermək əzmində olduğunu anlayacaq... Rusiya artıq parçalanmanın ilk əlamətlərini göstərib". Bütün bunlar o qədər də dramatik olmasaydı, Makronun mediadakı açıqlamalarına arxayınlıqla gülmək olardı. Davranışı ilə o, həyətdə lovğalanan xoruza bənzəyir!

Ukrayna ərazisində 30-dan çox ölkədən ibarət koalisiyanın Rusiyaya qarşı vuruşduğu bir vaxtda Rusiya Qərbin arsenallarının xeyli hissəsini məhv etməyə müvəffəq olub və Qərbi demək olar ki, silahsızlaşdırıb! Amma daha təəccüblü odur ki, Makron başda olmaqla Avropa və Amerika siyasi və hərbi xadimləri sanki mediadan "siyasi ortaqlar"ın təbliğatını öz qiymətləri ilə götürürlər.

Makron iddia edir ki, Rusiya ölüm ayağındadır, lakin eyni zamanda NATO ustalarının Ukraynadan tələb etdiyi əks-hücum Rusiyanın müdafiə xəttində cəmi 5 həftə ərzində 26.000 insanın həyatı bahasına başa gəlib. Dəlilik və ya çarəsizlik Makronu belə ehtiyatsız danışmağa vadar edir?

Əgər Rusiya Makronun iddia etdiyi kimi qeyri-sabitdirsə və dağılmaq ərəfəsindədirsə, NATO niyə uzunmüddətli hərbi və maliyyə yardımı təşkil etməyi planlaşdırır? Əgər Rusiya bu qədər müdafiəsizdirsə, Putinin məğlubiyyəti hamının iddia etdiyi kimi yaxın iki-üç gündə baş verərsə, o zaman bütün bu uzunmüddətli yardımı niyə planlaşdırırlar? Makron Rusiyanın zəifliyinə işarə edir, özü də Fransada vətəndaş sülhünü təmin edə bilmir! Rusiya o qədər zəif, müdafiəsiz və ölüm ayağındadır ki, Qərb bütün dünyada qadağan olunmuş kaset bombalarını tədarük etməyə məcburdur! Və artıq ehtiyatsızlığın zirvəsi belədir: "Ukraynanın böyük gələcəyi var və bu qədər uduzmuş münaqişədən sonra Rusiya tarixin hopdurduğu dövlətlərdən birinə çevriləcək"!

Vilnüsdəki sammit başa çatdı və Zelenski evə heç nə ilə getmədi! Ukraynaya qoşulmaqdan imtinaya haqq qazandırmaq cəhdi ilə NATO yalnız Rusiyanın öhdəsindən gələ bilmədiyini təsdiqləyir! Ukrayna Rusiyaya qarşı mübarizədə nəticə əldə etməyə borclu idi, bu, onun NATO-ya daxil olması üçün şərt idi. Ancaq əks-hücum uğursuz oldu və sonda NATO nəzərə almalı olacaq ki, Rusiya heç də zəifləməyib! Əks təqdirdə, Ukrayna NATO-ya qəbul ediləcək və öz növbəsində NATO da məşhur 5-ci maddəni - Rusiyaya birbaşa müharibə elanını tətbiq edə biləcək.

Bəs Makron nə oynayır? NATO Rusiyanın müqavimət göstərmək qabiliyyətini tanısa da, Makron fanfar rolunu oynamağa üstünlük verir.

**V.VƏLİ**

*Uşağınızla vaxt keçirdiyiniz zaman bu, ona psixoloji fayda olaraq geri qayıdır. Araşdırmalar göstərir ki, valideynlərin, xüsusilə, ilk beş yaşında uşaqların inkişafına emosional vaxt ayırmaları çox vacibdir. Xüsusilə, bu illərdə ailə ilə keçirilən zaman uşaqların mərkəzi sinir sisteminin inkişafına çox müsbət töhfələr verdiyi bildirilir.*


2 yaşlı Məryəm Hacıyeva:


5 yaşlı Raul Həsənquliyev:


9 yaşlı Rüfət Musayev:


6 yaşlı Banu Həsənquliyeva:


7 yaşlı Mehri İsmayılova:


5 yaşlı Yusif Piriyev:


5 yaşlı Aybəniz İsmayılova:


10 yaşlı Turan Əbilov:



# Valideynlərlə birgə vaxt keçirmək - uşaqlar bu haqda nə düşünürlər?

Valideynlərin gündəlik işləri bir kənara qoyub, uşaqlarına vaxt ayırması lazımdır. Ayrılan bu vaxt uşağınız üçün qısa və uzunmüddətli perspektivdə bir çox faydalar təmin edəcək.

Uşağınızla keçirdiyiniz vaxt onun özünə inamının inkişafı üçün çox vacibdir, çünki onunla vaxt keçirdiyiniz zaman ona verdiyiniz dəyəri göstərir. Yəni, "Sənə dəyər verdiyim üçün sənə vaxt ayırıram" mesajını verirsən.

Xüsusilə uşaq sayının çox olduğu ailələrdə hər uşağa bərabər vaxt ayrılması vacibdir.

SİA mövzu ilə bağlı azyaşlılar arasında sorğu edərək onların bu barədə fikirlərini öyrənib.

**9 yaşlı Rüfət Musayev:** "Ən çox suyu, dənizi və parkda vaxt keçirməyi sevirəm. Bunların hamısını atamla birlikdə etmək isə mənə zövq verir.

Anamı da sevirəm, amma hamı bilir ki, atamın yeri tamam fərqlidir. Çünki günümün çox hissəsi atamla keçir. Biz birlikdə çox əylənirik. Məsələn, anam şirniyyat yeməyə o qədər də icazə vermir. Atamla ikimiz olduqda isə mənə o qədər də mane olmur.

Ümumiyyətlə, ailəmlə keçirilən zaman mənim üçün çox maraqlıdır".

**7 yaşlı Mehri İsmayılova:** "Mən həm anam, həm də atamla əylənməyi çox sevirəm. İkisi də məni əyləndirməyi bacardığı üçün arada elə ciddi bir fərq görmürəm. Ailəmizin birlikdə olduğu hər yer mənim üçün əyləncəli və maraqlıdır.

Hər ailənin öz qanunları olur. Bazar günü də bizim ailə günümüzdür. Belə ki, həmin gün ilk olaraq birlikdə səhər yeməyi masasına əyləşirik. Anam bizə ən sevdiyimiz yeməklərdən hazırlayır. Mənim səhər yeməyində ən sevdiklərim sosiska və az bişmiş yumurtadır. Atam səhər yeməyini bacımla mənə əlləri ilə yedizdirir.

Daha sonra isə gəzmək üçün müxtəlif planlar qurub evdən çıxırıq".

**5 yaşlı Yusif Piriyev:** "Mən bütün günü əyləncəli yerləri gəzmək istəyirəm. Ən çox sevdiyim isə oyun zalı və parka getməkdir. Bir də atamla markete yollanmaqdan çox xoşum gəlir. Bura xüsusilə atamla getmək maraqlıdır. Çünki yalnız o mənə istədiyim hər şeyi alır. Amma anam yanımızda olduqda buna əngəl olmağa çalışır.

Atamla keçirdiyim vaxt ərzində çox əylənirəm və istədiyim hər şeyi aldırıram".

**5 yaşlı Aybəniz İsmayılova:** "Mənim üçün anam, yaxud atamla keçirdiyim vaxtın elə də bir fərqi yoxdur. Əsas odur ki, kimsə məni gəzməyə aparsın.

Ən çox isə oyun zalları və dənizi sevirəm. Üzə bildiyim üçün dəniz mənim üçün çox maraqlıdır. Bu yay 3-4 dəfə dənizə gedib maraqlı vaxt keçirmişik. Üzməyi mənə babam öyrədib və mən onunla çox əyləncəli vaxt keçirirəm".

**5 yaşlı Raul Həsənquliyev:** "Anamla vaxt keçirməyi sevirəm. Çünki çox nadincəm və buna səbirlə yalnız anam dözə bilir. Hər evdən çıxdıqda isə ona maşın aldırıram.

Heyvanları çox sevirəm. Buna görə də ən çox əyləndiyim məkanların başında Zoopark dayanır. İki dəfə Zooparka getmişik və ikisində də oradan çıxmaq istəməmişəm.

Restoranlara getmək də mənim üçün maraqlıdır. Amma uşaqlar üçün xüsusi guşəsi olan restoranları daha çox bəyənirəm. Orada ən çox sevdiyim yemək isə kartof qızartmasıdır.

Atam və anamla keçirdiyim vaxt ərzində özümü çox xoşbəxt hiss edirəm".

**3 yaşlı Alisa Süleymanova:** "Ən çox bacım və anamla zaman keçirməyi sevirəm. Bacımla çox mehribanıq və birlikdə parka gedir, gün ərzində fərqli oyunlar oynayırıq. Atamın yeri isə tamam fərqlidir. Çünki o mənim istədiyim hər şeyi edir.

Anamla daha çox parka yollanıram. Burada anam mənə ən sevdiklərimdən olan popkorn, meyvə şirəsi və pambıq alır. Amma ən çox həftə sonları, yəni atam evdə olan günü parka getmək daha əyləncəlidir".

**11 yaşlı Elxan Əbilov:** "Yay tətilində ailəmlə birlikdə Bərdə rayonunun Nəzirli kəndinə yollanırıq. Kəndi çox sevir və burada bolca əylənirəm.

Bundan əlavə ailəmlə sıx-sıx dənizə gedirik. Bu da mənim üçün çox maraqlıdır.

Çalışırıq ki, daim yemək masasına ailəvi əyləşək. Ən çox sevdiyim yeməklər isə anamın bişirdiyi dolma, dovğa, pizza və plovdur".

**6 yaşlı Banu Həsənquliyeva:** "Mənim üçün atamla keçirdiyim vaxt daha əyləncəli və maraqlıdır. Çünki atalar qızlarının istədiyi hər şeyi alır.

Ən çox getməyi sevdiyim yerlər əyləncə mərkəzləri və parklardır. Getdiyim yerlərdə də bütün uşaqlarla dost oluram. Çünki söhbət etməyi çox sevirəm".

**6 yaşlı Melisa Süleymanova:** "Atamın zamanı olduqca bizi kəndə nənəmin yanına aparır. Ona görə də atamla vaxt keçirmək çox maraqlıdır. Biz hər yay Siyəzənə yollanırıq. Çünki mən kəndi və kənd həyatını çox sevirəm.

Kənddə böyürtkən yığıb yeyirik, dənizə gedirik və nənəmə heyvanlara yem verməsi üçün daim kömək edirəm".

**10 yaşlı Turan Əbilov:** "Atam və nənəmlə zaman keçirməyi çox sevirəm. Çünki onlar mənim bütün şıltaqlıqlarıma səbir etməyi bacarırlar.

Daha çox yayda ailəvi şəkildə kəndə istirahətə yollanırıq. Atamgil qardaşımla məni bir müddətlik rayondakı nənəmin yanına aparırlar. Kənd həyatını çox sevir və nənəmə də işlərində kömək edirik. Amma mən anam, atam, qardaşım, bir sözlə, bütün ailə ilə keçirilən zamanı daha çox sevirəm".

**2 yaşlı Məryəm Hacıyeva:** "Ən çox nənəmlə vaxt keçirirəm. Onunla birlikdə parkda çox əylənirik. Atam və anamı da çox sevirəm. Onlarla da bol-bol əylənirik.

Parkda azyaşlı uşaqlar üçün olan atraksionlar mənim üçün çox maraqlıdır. Çünki onlar qorxulu olmur, əksinə məni əyləndirir. Hər gün nənəmdən buna görə məni parka aparmasını istəyirəm".

**1 yaşlı Toğrul Qarayevin anası:** "Toğrul daha çox özü ilə oynamağı sevir. Ən çox sevdiyi isə ailəvi şəkildə parka getməkdir. Bizimlə vaxt keçirmək onu xoşbəxt edir.Yaşı az olsa da, bunu hələ səsləndirə bilməsə də anlamaq heç də çətin deyil. Düşünürəm ki, övladımızla keçirdiyimiz zaman onun gələcək inkişafına da öz müsbət töhfəsini verəcək.

Oğlum yemək yeməyi də özü sevir. Bu barədə bizdən kömək belə istəmir.

Yeməkdən daha çox isə meyvə dadlarını bəyənir".

**6 yaşlı İsmayıl Nəbiyev:** "Ən maraqlı vaxt mənim üçün Bakıda keçiriləndir. Biz Bərdədə yaşayırıq. Amma şəhəri və oradakı parkları daha çox sevirəm.

Anamla sıx-sıx Bakıya gəlirik. Bu daha çox yay fəslinə təsadüf edir. Burada çoxlu qohumlarımız yaşayır".

***Ayşən Vəli***

## UŞAQLAR ARASINDA SORĞU

# Ərdoğan NATO ilə çətin danışıqlara hazırlaşır

ANALİZ

***İstanbulda 2016-cı ildə Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun qətlində əli olan qadın, polis tərəfindən həbs edilib. Türkiyə rəsmiləri onun Fətullah Gülənlə qohum olduğunu iddia edirlər. Ankara həm özünün, həm də Qərb ölkələrindən olan tərəfdarlarının ekstradisiyasına uğursuz cəhd edir. Gülənin xatırladılması, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bir sıra digər hərəkətləri ilə yanaşı, İsveçin NATO-ya daxil olması ilə bağlı danışıqların yekun hissəsi üçün ən konstruktiv fon yaratmır. Türkiyə lideri bu ölkəni Gülənçilərə sığınacaq verməkdə ittiham edir.***








Həbs edilən şəxsin adı Aişe Soqyutdur. Polisin məlumatına görə, o, Karlovun qətlinə hazırlıq işlərinə nəzarət edən Şahin Soğutun həyat yoldaşıdır və özü də cinayətdə iştirak edir. Qadın axtarışa verilib. O, qiyabi olaraq 9 il müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, Rusiya səfiri 2016-cı il dekabrın 19-da Ankarada, Müasir İncəsənət Mərkəzində öldürülüb. Karlovu polis əməkdaşı Mevlüt Mert Altıntaş güllələyib. Qatilin təhlükəsizlik xidməti tərəfindən güllələnmədən əvvəl çıxara bildiyi fəryadlara baxsaq, o, bununla da Suriyadakı hərbi əməliyyatın qisasını Rusiyadan almaq istəyib. Türkiyə hakimiyyəti bu cinayətdə iştirak etdiklərinə görə onlarla insanı həbs edib və mühakimə edib. Üstəlik, həbslərin çoxu 2016-2017-ci illərdə olub.

Ankaranın rəsmi versiyası birmənalı deyil: Karlovun qətli Gülənçilərin işidir. Onlar Türkiyədə müxtəlif cinayətlərdə ittiham olunurlar ki, bunlardan da başlıcası 2016-cı ildə hərbi çevriliş cəhdidir. Qərb bu ittihamları əsaslı hesab etmir. 82 yaşlı Gülən ABŞ-da yaşayır və onun ekstradisiyası tələbləri rədd edilir. Türkiyənin vetosuna görə NATO-ya rəsmi üzv ola bilməyən İsveçdə isə Gülənçilər terrorçu kimi deyil, zorakılıq olmadan hakimiyyətin dəyişməsini müdafiə edən Ərdoğanın siyasi rəqibləri kimi qəbul edilir. Onlar Stokholmda Kürdüstan Fəhlə Partiyasına (PKK) qarşı Ankara ilə əməkdaşlıq etmək barədə prinsipial razılığa gəliblər. Ərdoğanın İsveçin NATO-ya daxil olması ilə bağlı protokolun ratifikasiyasına yaşıl işıq yandırmasının yeganə səbəbi budur. Amma Ankaranın Gülənçilərlə bağlı istədiyi heç bir irəliləyiş yoxdur. İsveç Ali Məhkəməsinin iyul qərarını xatırlatmaq kifayətdir. O, Gülənin tərəfdarları olan iki Türkiyə vətəndaşını Türkiyəyə təhvil verməkdən imtina edərək, onların terrorda iştirakına dair heç bir sübutun olmadığını əsas gətirib.

Türkiyə polisi hesab edir ki, Soğut işində belə dəlillər var. O, yeni şübhəliləri müəyyən etməyə kömək edəcək bir sıra ipucu ələ keçirdi. Müsadirə edilənlər arasında Türkiyə xüsusi xidmət orqanlarının məlumatına görə, Gülənçilərin Türkiyədəki gizli tərəfdarları ilə əlaqə saxlamaq üçün istifadə etdikləri kodlu əlaqəyə malik mobil telefon da olub.

Soğutun həbsi oktyabrda Türkiyə parlamentində keçiriləcək müzakirələri ciddi şəkildə çətinləşdirə bilər. İsveçin NATO-ya daxil olması ilə bağlı protokolu ratifikasiya edən qanunvericilərdir. Qərbin onları ekstradisiya etmək istəmədiyi bir vaxtda Gülənçilərin ölkədə fəaliyyətini davam etdirdiyini xatırlatmadan bu müzakirənin çox çətin olacağını vəd etdi. Ratifikasiyaya açıq şəkildə Hür Dava Partiyasının lideri Zəkəriyyə Yapıcıoğlu etiraz edib. Onun islamçı, kürd yönümlü sünni partiyası hakimiyyətin razılığı ilə bu ölkədə Quran yandırıldığı üçün İsveçin NATO-ya daxil olmasına bütün gücü ilə qarşı çıxmaq qərarına gəlib. Yapıccoğlu tərəfdarlarının parlamentdə öz fraksiyaları yoxdur. Lakin 4 deputat (özü də daxil olmaqla) Ərdoğanı dəstəkləyən Ədalət və İnkişaf Partiyasının siyahıları ilə parlamentə daxil olub. Ola bilər ki, digər deputatlar da Yapıccoğlundan nümunə götürsünlər, xüsusən də prezident özü icazə verərsə.

Və o bunu edə bilər. Ərdoğanla Qərb arasında münasibətlərin yaxın gələcəkdə kəskinləşə biləcəyinin lehinə Türkiyə liderinin bəzi hərəkətləri sübut edir. Əvvəla, ordunun rəhbərliyində kadr dəyişiklikləri heyranedicidir. Ərdoğanın avqustun 3-də çağırdığı Ali Hərbi Şuranın iclasından sonra 32 general və admiralın rütbəsi yüksəldilib.

Ordunun əsas idarəetmə orqanı olan Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahına general Metin Gürak başçılıq edirdi. Eyni zamanda, təyin olunanların heç biri NATO strukturlarında heç bir vəzifədə çalışmayıb. Bu, ənənəvi olaraq müttəfiqləri ilə yaxından əlaqəsi olan insanlara dəyər verilən Türkiyə ordusunda çox qeyri-adi haldır. Türkiyənin NATO ilə gözlənilən kopuşundan və ölkənin xarici siyasətində dəyişiklikdən danışmağın mənası yoxdur. Daha doğrusu, Ərdoğan bir dəfədən çox etdiyini edir. Bu, Qərbə nümayiş etdirir ki, Türkiyənin Amerikanın, məsələn, İsveçin maraqlarından fərqli, öz maraqları var və NATO müttəfiqləri onları maraqlandıran məsələlərdə güzəştlərə bel bağlasalar, onlara hörmət etməli olacaqlar.

***V.VƏLİYEV***

# "Heç kim Ermənistana görə Azərbaycanla müharibə etməz"

***"Azərbaycanla Ermənistan arasında müxtəlif platformalarda keçirilən çoxsaylı danışıqlar prosesində sülh müqaviləsinin imzalanması üçün demək olar ki, bütün məsələlər razılaşdırılmışdır. Hətta Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü parametrləri açıqlayaraq tanıdığını və Qarabağı Azərbaycanın suverən ərazisi olduğunu dəflərlə bəyan etmişdir. Deyə bilərəm ki, sülh müqaviləsinin imzalanması son mərhələyə yaxınlaşmışdı. Amma bu proses birdənbirə dayandı və Ermənistan təxribatlara əl atmağa başladı. Bunun kökündə bir neçə səbəbin dayandığını hesab edirəm". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.***



Onun sözlərinə görə, birincisi Fransanın və digərlərin Ermənistana dayaq dayanması erməniləri



yenidən öz çirkin niyyətlərinə davam etməsinə ruhlandırıb: ”Ona görə də şərti sərhədimizdə təxribatlara əl atır, humanitar yardım adı altında avomobil karvanı şousuna və sülhməramlıların yerləşdiyi ərazilərimizdə yerləşən qeyri-qanuni silahlıların silahlandırılmasına davam edir. Bu da regionda müharibə riskini yenidən artırır.

Ermənistan elə bilir ki, onun yerinə Fransa və ya digər ona dəstək dayananlar gəlib Azərbaycanla müharibə edəcək. Bu absurd düşüncədir. Heç kim Ermənistana görə Azərbaycanla müharibə etməz. Bu gün Ermənistana verilən siyasi dəstək erməni diasporun pulları hesabına təşkil olunur. Amma heç kim erməniyə görə Azərbaycan əsgəri ilə qarşı-qarşıya gəlməz. Çünki, bütün dünya Azərbaycan ordusunun gücündən xəbərdardır”.

Deputat sözlərinə belə davam edib: ”İkinci səbəb isə Ermənistanın sülh müqaviləsi imzalmaqdan uzaq olmasıdır. Ermənistan hakimiyyəti müxtəlif yollarla prosesi uzadaraq hakimiyyətini əlində saxlamağa çalışır. Amma onlar anlamırlar ki, vəziyyət əbədi belə davam edə bilməz və bir gün partlayacaqdır. Xalqı altdatmaqla hakimiyyəti əldə saxlamaq faciəyə aparır. Müstəqil media qurumları tərəfindən Ermənistan ictimaiyyəti arasında aparılan rəy sorğularında da reyspondentlərin əksəriyyəti müharibənin istəmədiyini, Qarabağın heç vaxt Ermənistanın olmadığını və yeganə çıxış yolu Azərbaycanla sülh müqaviləsi imzalanaraq sərhədlərin açılmasında olduğunu görürlər.

Sülh müqaviləsinə mane olan əsas səbəb Paşinyan hakimiyyətinin siyasi manipulyasiyalara əl atmasıdır. Əslində sülh müqaviləsinin imzalanması üçün müzakirə olunmalı ciddi məsələlər qalmamışdır. Burda əsas məsələ Paşinyanın sözlə ifadə etdiyi sözləri kağızda imza ilə möhkəmlətməklə sərhədlərin delimitasiyası və demarkasiyasına başlamasıdır. Bunun üçün Ermənistan hakimiyyətinin məsələyə obyektiv yanaşması və siyasi iradə nümayiş etdirməsi vacibdir. Əks halda yenidən hərbi əməliyyatların başlanması qaçılmazdır”.

***Ayşən Vəli***



# “Humanitar böhran”, yoxsa “humanitar böhtan”?



## Paşinyan bölgəni yeni müharibəyə sürükləyir




**Ermənistan hələ də Azərbaycana qarşı çoxvariantlı təxribatlarını davam etdirməkdədir. İşğalçı ölkənin baş naziri Nikol Paşinyan reallıqları qəbul etmək, sülh üçün əməli addımlar atmaq əvəzinə öz himayədarlarına güvənərək bölgəni yeni müharibəyə sürükləyir. Səbəb isə Ermənistandan Xankəndinə göndərilən yük maşınlarının Azərbaycan sərhədçiləri tərəfindən Laçın sərhəd keçid- məntəqəsindən buraxılmaması göstərilir. Amma onlar anlamırlar ki, Laçın -Xankəndi yolunu bağlamaq Azərbaycanın suveren hüququdur. Əvəzində Azərbaycandan Ermənistana Ağdam –Xankəndi yolu kimi daha mükəmməl variant təklif edilir.**

Bu gün Ermənistan hakimiyyətinin və onun havadarlarının məqsədi «humanitar böhran» şousu yaratmaqla Azərbaycana qarşı «humanitar böhtan» kampaniyasını genişləndirməkdir. və bu prosesə beynəlxalq təşkilatları da cəlb etməkdir. Təbii ki, faşizmin bir qolu olan müasir erməni zehniyyəti hələ də anlamır ki, rəsmi Bakı Ermənistanın icazəsiz göndərdiyi «humanitar yükü» öz ərazisinə buraxmayacaq. Hətta ən geniş şəkildə beynəlxalq təzyiqlərə və təsirlərə rəğmən Azərbaycan dövləti öz suveren hüquqlarının tapdanmasına icazə verməyəcək.

Qeyd edək ki, Ermənistan rəhbərliyinin təxribatlarına uyan bəzi beynəlxalq ermənipərəst siyasi dairələr ölkəmizə qarşı müəyyən «bəyanatlar» səsləndiriblər. Ancaq o «bəyanatlar» heç də ermənilərin ümid bəslədikləri effekti vermədi. Ona görə ki, Azərbaycan dövləti Ermənistanın beynəlxalq hüquq normalarını pozmaqla, məqsədyönlü şəkildə təxribat törətdiyini sübuta yetirdi. Axı əslində Ermənistan üçün «humanitar yük»ün hansı marşrut üzrə keçirilməsinin heç bir fərqi olmamalıdır. Halbuki, Ermənistan hələ də Laçın –Xankəndi yolunun açılmasında israr edir. Bəli, Azərbaycan dövlətinin vaxtında Laçında sərhəd-keçid məntəqəsinin yaratması uğurlu addım olmaqla Ermənistanın əl-qolunu bağlayan mühüm hadisə idi. Ona görə ki, artıq ermənilər Laçın yolundan hərbi məqsədlərlə istifadə etmək şanslarını itiriblər. Bununla bərabər, Ermənistan indi Azərbaycanın Xankəndi və ətraf bölgəsində cərəyan edən proseslərə təsir imkanlarını da itirib. Bu isə o deməkdir ki, Nikol Paşinyan hakimiyyəti Xankəndidəki və ətraf qəsəbələrdəki erməni azlığının gələcək taleyinin həll edilməsi proseslərində tamamilə oyundankənar vəziyyətə salınıb.

Təbii ki, Ermənistanın Laçın yolu istiqamətində davam edən təxribatları yeni ciddi silahlı toqquşmalara gətirib çıxara bilər. Erməni şərəfsizliyinin və riyakarlığının pik nöqtəsi ondadır ki, onlar bu dəfə Laçın postuna erməni terror dəstəsini mülki şəxslər adı altında göndərmək niyyətindədirlər. Özün bu terrorçuların rəhbəri kimi təqdim edən erməni Laçın yolunu zorla açacaqlarını bildirib. İddia edilir ki, terrorçular Ermənistanın Azərbaycanla sərhəd bölgəsindədirlər.

Burada maraqlı bir nüansa da diqqət yetirmək lazımdır. Belə ki, terrorçular İrəvanda Laçın yolunun açılması tələbi ilə aksiya keçirərkən Ermənistan polisi onlardan bəzilərini həbs etmişdi. Bununla da guya bu terrorçuların Paşinyan hakimiyyəti ilə qarşıdurma vəziyyətində olması görüntüsü yaratmağa çalışdılar. Bu da Paşiniyanın növbəti riyakarlığıdır. Guya Ermənistan hakimiyyəti «səlibçi terrorçular»ın törədəcəyi hadisələrdə ölkə rəhbərliyinin əlaqəsinin olmadığını sübut etmək istəyir. Bununla da Ermənistan hakimiyyəti terrorçuların sərhəd bölgəsində törədə biləcəkləri cinayətlərdən özünü indidən sığortalamağa cəhd edir. Ancaq tam çılpaqlığı ilə görünür ki, terror dəstəsini Laçınla sərhədə məhz Paşinyan hakimiyyəti təlimatlandıraraq göndərib.

***Elçin Zaman***

# BMTM: “Okamponun birtərəfli hesabatı BMT TŞ-nin iclasından əvvəl digər dövlətlərin dəstəyini qazanmaq üçün uydurulub”




Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) Beynəlxalq Kriminal Məhkəmənin keçmiş prokuroru Luis Moreno Okamponun ”2023-cü ildə ermənilərə qarşı törədilmiş soyqırımı” adlı qondarma “ekspert rəyi”nə cavab olaraq ingilis dilində “Luis Moreno Okamponun Qarabağla bağlı qərəzli rəyi: Siyasi məqsədlər üçün Soyqırımı Konvensiyasından sui-istifadə” adlı təhlil hazırlayıb.

AZƏRTAC xəbər verir ki, təhlilə əsasən, bəzi beynəlxalq media təşkilatlarının faktı araşdırmadan rəyə istinad etməsi vəziyyətə dair həqiqətin əksinə mənzərənin yaranmasına yol açır. Okampo rəyində qeyd edir ki, Azərbaycan Silahlı Qüvvələri tərəfindən Laçın yolunun “blokada”sı və ərzaq, tibbi ləvazimatların və digər vacib avadanlıqlara çıxışın qadağan edilməsi Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılmasına dair Konvensiyanın ikinci maddəsinə əsasən soyqırımı kimi qəbul edilməlidir. O, xüsusilə 2-ci maddənin “qrupun qismən və ya tamamilə fiziki məhvi məqsədilə həyat tərzinə bilərəkdən təsir etmə” bəndinə istinad edir. Bildirilir ki, bu kontekstə bu mətn hüquqi rəy deyil, cənab Okamponun ermənipərəst siyasi vəkilliyi və ya müşavirlik mövqeyidir. Əsas hüquqi məsələlərin yarımçıq müzakirəsi ilə yanaşı, müəllif analoji müqayisələr aparır, “Rusiyanın geosiyasi maraqları”, “Ukrayna müharibəsi” kimi ifadə etməklə ”2025-ci ilə qədər mübahisəli ərazi iddialarının institusional həlli”ni tapır və hətta Avropa İttifaqı və ABŞ-a Azərbaycanın xarici siyasəti və qərarlarına təsir etmək üçün klassik diplomatik alətlərdən necə istifadəyə dair tövsiyələr verir.

Qeyd olunur ki, 2023-cü il aprelin 23-də Azərbaycan “Laçın” dövlət sərhədindən keçid məntəqəsini qurmaqla Ermənistanla arasında sərhəd nəzarətini tam bərpa edib və Rusiya sülhməramlı qüvvələri daxil olmaqla insan və nəqliyyat vasitələrinin nəzarətinə başlanılıb. “Ermənistan bu addımı “blokada” adlandırsa da, Azərbaycan bunun adi sərhəd nəzarəti olduğunu bəyan edib. O vaxtdan bu yana ermənilər Qarabağa Azərbaycan ərazisi kimi daxil olur və çıxır, pasport və yük qeydiyyatından sonra şəxsi və ya biznes məqsədilə yükləri daşıya bilir”, - deyə təhlildə bildirilir.

Əlavə olunur ki, iyulun 15-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında Brüssel formatında görüş baş tutub və tərəflər Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) humanitar yardımlarının daşınması üçün Ağdam yolu da daxil olmaqla, Laçın yoluna alternativ yolları müzakirə ediblər. Bu tarixə kimi, ermənilərin “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsi vasitəsilə Qarabağa daxil olması və çıxmasına, o cümlədən şəxsi və biznes məqsədilə məhsulların daşınmasına heç bir maneə olmadığı halda tərəflər hər iki yolun Qarabağa yardım məqsədilə istifadə edilməsində razılığa gələ bilmirlər. Xüsusilə Ermənistan tərəfi Ağdam yolunu fiziki olaraq bağlayaraq, onu BQXK maşınları üçün keçilməz edib.

Təhlil materialında deyilir ki, ekspert rəylərində ekspertiza materiallarından əlavə ekspertin etibarlılığı da ən əsas prinsipdir: “Fakt budur ki, Okamponun etibarlılığı Beynəlxalq Cinayət Məhkəməsindəki (BCM) ofisində olarkən və getdikdən sonra uzun müddətdir sual altında idi. Məsələn, Avropa İstintaq Əməkdaşlıq Təşkilatının araşdırması göstərdi ki, Okampo Haaqa Beynəlxalq Cinayət Məhkəməsində baş prokuror vəzifəsində çalışarkən dünyanın ən məşhur vergi sığınacaqlarında yerləşən çoxsaylı ofşor şirkətlərini idarə edib. Bu, BCM-in Nizamnaməsinin tələblərinin açıq şəkildə pozulması deməkdir. “Spiegel”in araşdırmasına əsasən isə Okampo bir çox ofşor hesablar vasitəsilə Liviyada cinayətkar milyarderlərdən məbləği açıqlanmayan milyonlarla vəsait alıb. Sonda Okamponun BCM-in ideyalarına və ruhuna xəyanət etdiyi qənaətinə gəlinib. “The Financial Times”ın araşdırmasına əsasən, Luis Moreno Okamponun məhkəməsiz edamlar və digər hüquqların pozulmasında ittiham olunan Liviya hərbçiləri ilə son vaxtlara qədər əlaqəsi olan Həsən Tatanaki əməkdaşlığı olub və hətta BCM-in əməkdaşları da ofisi tərk etdikdən sonra şəxsi konsultant kimi çalışan Okampo ilə şübhəli əlaqələrə malikdirlər.

Okampo iddia edir ki, bu yazı üçün Dağlıq Qarabağın qondarma “lider”i Araik Aratyunyandan tapşırıq alıb. “Qeyd etmək yerinə düşər ki, A.Aratyunyan beynəlxalq hərbi cinayətkardır və Azərbaycanın ona qarşı cinayət ittihamları var. O, Qarabağda qanunsuz rejimə rəhbərlik etməklə yanaşı, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə edilən ballistik raket hücumuna görə məsuliyyət daşıyır. Okamponun müharibə cinayətkarından tapşırıq alması ekspertlərin heç bir etik qaydalarına uyğun gəlmir. Bu Srebrenitsa qətliamının əsas günahkarı olan Ratko Mladiçdən onun əməllərinin beynəlxalq cinayət hüququna uyğun olub-olmaması ilə bağlı tapşırıq almağa bərabər olardı. Bu faktlar ekspertin ümumi etibarına kölgə salır”, - deyə təhlildə vurğulanır.

Bildirilir ki, Okamponun Ermənistan hökuməti ilə əlaqələri heç bir şübhə doğurmur. 2010-cu ildə o, Xocalı qətliamının təşkilatçılarından biri olan Ermənistan prezidenti Serj Sarkisyanla görüşüb: “Okamponun faktlara və qanunlara “mətbəx çanağ”ı yanaşması Ermənistanın işini heç də irəli aparmır. Əksinə məlum oldu ki, bu siyasi məzmunlu rəy bir sıra əsas dövlətlərin BMT Təhlükəsizlik Şurasının 2023-cü il avqustun 16-na təyin edilmiş fövqəladə iclasına dəstəyini gücləndirmək məqsədi daşıyır. Ermənistanın Soyqırımı Konvensiyasına əsasən Beynəlxalq Ədalət Məhkəməsi qarşısında Azərbaycana qarşı iddia qaldırmaq hüququ var. Lakin belə bir iddia irəli sürməsi belə ciddi iddiaları təsdiq edəcək heç bir sübutun olmadığını göstərir. Ermənistan hökuməti belə bir sübut təqdim etməyib, çünki o, mövcud deyil. Bundan əlavə, Okamponun “şübhəli reputasiyası” və Azərbaycana qarşı qərəzli mühakimə, rəydə hüquqi və faktiki nöqsanların olması beynəlxalq təşkilatların, media qurumlarının və məhkəmə orqanlarının istifadə etməzdən öncə ciddi yoxlamasını tələb edir”. Daha ətraflı: https://aircenter.az/uploads/SN5P9JpKLCAD.pdf



# YAP Zərdab rayon təşkilatının təsis edilməsinin 30 illiyi qeyd olunub

*Yeni Azərbaycan Partiyasının (YAP) Zərdab rayon təşkilatının təsis olunmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib.*

Tədbir iştirakçıları əvvəlcə partiyanın yaradıcısı, Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin abidəsini və ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş Vətən oğullarının xatirəsinə ucaldılmış Şəhidlərin Xatirə Kompleksini ziyarət ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunan tədbirdə Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin və dünyasını dəyişmiş partiya üzvlərinin əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş nitqi ilə açan Yeni Azərbaycan Partiyasının Zərdab rayon təşkilatının sədri İlkin Əliyev partiyanın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, ötən dövr ərzində YAP Zərdab rayon təşkilatının fəaliyyətindən bəhs edərək 30 illik yubiley münasibəti ilə iştirakçıları təbrik edib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan dövlətinin çiçəklənməsi və inkişafı bu gün Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir, günü-gündən yeni-yeni uğurlara imza atılır. Vətən müharibəsində əldə olunmuş zəfərin Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmaqla, ölkəmizin gücünü bütün dünyaya nümayiş etdirmiş olduğu, mənfur düşmənin işğalçılıq siyasətinə 44 gün ərzində son qoyularaq bütövlüyümüzün bərpa olunduğu diqqətə çatdırılıb.

Tədbirdə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadə çıxış edərək, Azərbaycan xalqının taleyində müstəsna yerə malik olan Yeni Azərbaycan Partiyasının dahi siyasi xadim və qüdrətli şəxsiyyət Heydər Əliyevin adı ilə bağlı olmasını, bu gün partiyanın Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf etməsini və müstəqil Azərbaycanın həyatında önəmli yerə və rola malik olmasını diqqətə çatdırıb, YAP Zərdab rayon təşkilatının yaradılmasının 30-cu ildönümü münasibətilə iştirakçıları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra çıxış edən YAP Zərdab rayon təşkilatının veteran üzvü Tahir Qasımov, Vətən müharibəsi şəhidi, mayor Rəhim Hüseynovun atası Qədir Hüseynov, Vətən müharibəsi iştirakçısı, Əlvənd kənd tam orta məktəbinin direktoru Elvin Xəlilov, tələbə, aktiv gənc Cəmilə Mehdiyeva, Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin Zərdab rayonu üzrə gənclər və idman sektorunun müdiri Ələkbər Kərimov Yeni Azərbaycan Partiyasının həm Ulu Öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın çiçəklənməsi yolunda şərəfli bir yol keçmiş partiya olduğunu, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən islahatların və proqramların ümumilikdə insanların həyat və şəraitinin, o cümlədən sosial rifah halının yüksəldilməsinə hesablandığını qeyd ediblər.

Sonda partiya sıralarına yeni daxil olmuş üzvlərə vəsiqələr, fəaliyyətlərinə görə fərqlənmiş üzvlərə isə fəxri fərmanlar təqdim olunub.

# Cəmil Həsənli indi də kuryerlik edir

## *Pullar, planlar və görülməli olan tapşırıqlar Cəmil Həsənli vasitəsi ilə Əli Kərimliyə çatdırılır*





***Bu, bir faktdır ki, bəzən insan səhv peşə, yanlış ixtisas seçəndə həyatı boyu uğursuz həyat yaşayır. Bir məqamda ixtisasını və ya peşəsini dəyişməyə çalışsa da alınmır. Çünki el məsəlidir, "qırxında öyrənən gorunda çalar". Vay o günə ki, siyasi bacarığın, istedadın olmadığı halda siyasətə baş vurasan. Bu halda insanın həyatı alt-üst olur.***

Bir zaman bazarda qarpız satmış, institutda laborant işləmiş, xəstəxanada feldşer olaraq çalışmış şəxslərin gözlənilmədən Azərbaycan siyasətində peyda olmaları və bunun ağır nəticəsi olaraq hansı acınacaqlı həyat yaşadıqları bütün cəmiyyətə məlumdur. Milli Şuranın sədri Cəmil Həsənlinin də yeri səhv düşüb, öz ağır gününə ağlayanlardandır. Elm aləmində bir o qədər uğur qazana bilməyəcəyini anlayan Cəmil Həsənli şansını siyasətdə yoxlamağa çalışıb. Onun "Milli Şura" sədrliyindəki 8 illik sədrlik fəaliyyəti onu deməyə əsas verir ki, dörd ölkənin üzüqara professoru siyasətdə də nəticə əldə edə bilməyib. Düzdür, elmdən fərqli olaraq siyasətə baş vurandan maddi durumu yaxşılaşıb. Daha doğrusu, "Milli Şura"nın sədri olaraq xaricdən böyük məbləğdə maliyyə vəsaitləri alıb. Məhz bu pullar hesabına Vaşinqtonda və Londonda özünə ev-eşik alıb, əyin-başını düzəldib, övladlarına gün-güzəran yaradıb. Lakin üzüntülüdür, çünki dərk edir ki, aldadılaraq siyasətə gətirilməsi ilə elmdən uzaq düşüb, araşdırmalı və yazmalı olduğu elmi əsərlərindən məhrum olub. Həm də xarici qüvvələrlə iş birliyində olması faktları aşkarlandığı üçün cəmiyyətin qınaq obyektinə çevrilib. KİV-lərdə tənqid edilib, sosial şəbəkələrdə haqqında ittihamlar irəli sürülüb, təhqirlər səsləndirilib. Yəni, siyasət ona qalaq-qalaq kitablara sığmaya pisliklər gətirib.

### Ə.Kərimli C.Həsənlini özünün qurduğu tilsimli oyununa salıb

Təbii ki, bu pisliklərin yaranmasında daha çox AXCP sədri Əli Kərimli rol oynayıb. Ə.Kərimli bir növ onu özünün qurduğu tilsimli oyununa saldı. Elə bir oyuna ki, C.Həsənli uzun illərdir çalışır ki, tilsimi sındıraraq azadlığına qovuşsun, lakin çabaladıqca daha dərin bataqlığa düşür. C.Həsənli müqəvva olmadığını Ə.Kərimliyə göstərməyə çalışsa da, onda bu alınmayıb. Ötən il Londondakı evindən belə bir açıqlama vermişdir ki, o, "Milli Şura" sədrliyindən gedir: "Bununla bağlı təklif vermişəm. Milli Şura gəncləşməli, yenilənməlidir, artıq 8-ci ildir təşkilatın rəhbəriyəm. İnsanları nəyəsə çağırırsansa, özün prosesin önündə olmalısan. Londonda, Parisdə, Vaşinqtonda oturub riskli bir cəmiyyətdə insanları etiraza çağırmağın əlavə mənəvi yükü var. Yaşın elə bir həddidir ki... Hər yerdən, o cümlədən də bu dünyadan gərək vaxtında gedəsən. Aktiv siyasətdə və Milli Şuranın rəhbərliyində qalmağı düşünmürəm" . Lakin C.Həsənli dediyini əməli fəaliyyətində həyata keçirməyə cəsarəti çatmadı. Çünki Ə.Kərimli ona bu imkanı vermədi. Təbii ki, nə zaman Ə.Kərimli istəsə o zaman C.Həsənli Milli Şura sədrliyindən, ümumilikdə siyasətdən gedəcək. Hələlik isə, Ə.Kərimlinin belə planı yoxdur. Çünki bəzi xarici maraqlı dairələr Azərbaycanın dağıdıcı müxalifətinə ayrılan maliyyə vəsaitlərini C.Həsənliyə Londondakı evində təqdim edirlər. Məlumatlara görə, son bir il ərzində müxtəlif xarici maraqlı dairələr Ə.Kərimliyə çatdırılması üçün İngiltərə də C.Həsənliyə 216 min avro və 147 min ABŞ dolları veriblər. Təbii ki, həmin pullardan bir qismini C.Həsənli özünə götürməklə digər hissəsini müxtəlif yollarla Ə.Kərimliyə çatdırıb. Planların və görülməli olan tapşırıqlarında C.Həsənli vasitəsi ilə Ə.Kərimliyə çatdırıldığını nəzərə alsaq, Ə.Kərimliyə C.Həsənlinin Milli Şura sədrliyindən uzaqlaşdırmaq çətin görünür. Ancaq "siyasətdə daimi düşmənlər olmadığı kimi, dostlar da olmur, maraqlar olur" prizmasından siyasi proseslərdə baş verənlərə nəzər yetirən Ə.Kərimli günün birində C.Həsənlini Fuad Qəhrəmanlı və ya Seymur Həzi ilə əvəzləyə bilər.

**İ.ƏLİYEV**

# Erməni KİV-ləri Aİ missiyasını ittiham etdilər

## *Politik.am: "Ermənistana erməniləri müdafiə etmək adı ilə gələn Aİ müşahidəçiləri erməni KİV-lərindən qaçırlar"*





Ermənistanda fəaliyyət göstərən media qurumları bu dəfə Avropa İttifaqı missiyasının ölkədəki fəaliyyətinin səmərəsizliyindən şikayət etmələri ilə yanaşı, missiya təmsilçilərinin mətbuatdan qaçdıqlarını və proseslərlə bağlı heç nə demədiklərini yazırlar. Aİ missiyasını hədəfə alan Ermənistanın politik.am saytı bununla bağlı yazı hazırlayıb və orada bildirilir ki, missiya təmsilçilərinin cavabları yalnız belədir: "Biz müdaxilə edə bilmərik, bizim ixtiyarımızda yalnız binokllar və kameralar var". Bu barədə Aİ missiyasının Ermənistana ezam olunmuş qrup rəhbəri Markus Ritter Almaniyanın Deutsche Welle nəşrinin suallarını cavablandırarkən bildirib.

### "Avropa dəyərlərinə müvafiq transparentliyi təmin etmirlər"

Erməni KİV-ləri Aİ missiyasını hədəfə alaraq onlara qarşı ittiham xarakterli fikirlər dərc edirlər və "Azərbaycanın Ermənistana hücumetmə ehtimalı" ətrafında fikirlərini irəli sürərək yazırlar ki, missiya nümayəndələri nəinki bu məsələyə münasibət bildirməkdən yayınırlar, həmçinin, erməni mətbuatı ilə təmas qurmağı da istəmirlər. "Onlar bizi narahat edən suallara cavab vermirlər və Avropa dəyərlərinə müvafiq transparentliyi təmin etmirlər", - deyə KİV-lərdə bildirilir.

### Aİ təmsilçiləri erməni KİV-lərindən qaçırlar, amma...

Politik.am yazır ki, artıq bir neçə həftədir ki, müşahidə missiyasının fəaliyyətini işıqlandırmağa cəhd edir, lakin onlar hər fürsətdə onların suallarını cavabsız qoyur: "Əvvəlcə biz missiyanın nümayəndələri ilə Aİ-nin Ermənistandakı səfirliyi vasitəsi ilə əlaqə yaratmağa səy göstərdik və bizə dedilər ki, bununla bağlı yazılı müraciət etmək lazımdır, ancaq sonrakı məqamda bizim müraciətimizə cavab verilmədi. Biz məcbur olaraq müşahidə missiyasının Yexeqnadzordakı Baş qərargahına getdik ki, bizi maraqlandıran sualların cavabını yerində öyrənək. Müşahidə missiyasının yerləşdiyi mehmanxanada ajiotaj yaşanırdı. Müşahidəçilər öyrənəndə ki, biz erməni KİV-lərinin təmsilçiləriyik, tələb etdilər ki, onları çəkməyəcək və sonra da öz rəhbərlikləri ilə əlaqə yaradaraq suallarımıza cavab verməkdən imtina etdilər".

Söhbət isə əlbəttə ki, Azərbaycanın Qarabağ iqtisadi rayonuna daxil olan Laçın yolunda erməni şousundan gedir. Bu məqamda isə real fakt budur ki, artıq bu məsələ qapanıb və "aclıq" adlı tamaşa uğursuz alınıb. Düzdür, bəzi erməni havadarları hələ də ortada gedib-gəlirlər, amma bu oyunbazlıqlar da əlbəttə ki, səmərəsiz qalıb. Artıq Azərbaycan MN və XİN də müvafiq açıqlamalarını veriblər. Top isə Aİ missiyasında deyil, məhz Ermənistan rəhbərliyindədir.

Beləliklə, erməni nəşri sonda qeyd edir ki, Ermənistana gəlmiş Aİ missiyasının hansı səbəbdən KİV-lərdən qaçmaları suallar doğurur. "Onlar nəyi gizlədirlər? Və bu qədər qapalı və məxfi fəaliyyətə səbəb nədir?", - deyə erməni jurnalistləri nə vaxtsa bu suallara cavab tapacaqlarına ümid etdiklərini desələr də, əslində, bu sualın cavabını elə onların özləri də yaxşı bilirlər...

**Afət Tahirqızı**

# “Yeni müəssisələrin açılması ölkəmizin ixrac imkanlarını genişləndirir”

***İqtisadiyyatın düzgün əsaslar üzərində qurulması dövlətimizin həyata keçirdiyi siyasətin əsas tərkib hissəsidir. Ümummilli Lider Heydər Əliyevin «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir» tezisi bütün dövrlər üçün aktuallığını qorumaqla yanaşı, həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri kimi diqqətdədir. 2003-cü ildən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya prioritet məsələ kimi qoyan dövlət başçısı İlham Əliyev hədəfə çatmaq üçün regionların malik olduğu potensialdan səmərəli istifadə etmək üçün Regional inkişaf proqramlarını təsdiqlədi.***



Regionlarla bərabər, Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə Dövlət Proqramının uğurlu icrası əldə olunan göstəricilərdə aydın ifadəsini tapıb. Bu inkişaf, eyni zamanda, iqtisadiyyatın dayanıqlılığını təmin edir. Azərbaycanın dayanıqlı iqtisadi inkişafı dünyanın diqqətindədir. Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadə etməsi maliyyə imkanlarının genişlənməsinə mühüm şərait yaradır ki, bu da öz növbəsində sosial-iqtisadi layihələrin icrasını sürətləndirir.

Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, paytaxt Bakımız, həmçinin işğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla bütün bölgələrimiz inkişaf, tərəqqi dövrünü yaşayır. İqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi qeyri-neft sektorunun inkişafına geniş imkanlar açır. Hazırda neft-qaz sektoru ilə yanaşı, qeyri-neft sahəsinə yatırılan investisiyaların da həcmi artır. Ölkəmizin ixrac imkanları genişlənir. Dövlət başçısı İlham Əliyev daxili tələbatımızın öz imkanlarımız hesabına ödənilməsini qarşıya mühüm vəzifə kimi qoyur.

Avqustun 15-də dövlət başçısı İlham Əliyevin iştirakı ilə Bakının Pirallahı rayonunda “Diamed” dərman istehsalı zavodunun açılışı da bunun bariz nümunəsidir. Cənab İlham Əliyev istehsal prosesi ilə yaxından tanış oldu. Zavodda müxtəlif adlarda, geniş çeşiddə və müxtəlif həcmlərdə həyati vacib və zəruri venadaxili dərman məhlulları istehsal olunacaq. Müəssisənin illik istehsal gücü 20 milyon litrdir. Ölkəmizin bu dərmanlara olan illik tələbatı isə təxminən 15 milyon litrdir. Müəssisədə istehsal ediləcək məhsulların yerli bazarın tələbatını ödəməsi ilə yanaşı, Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixracı da nəzərdə tutulur.

Bu fikirləri “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, ölkəmizdə iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına da xüsusi əhəmiyyət verilir. Mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər həyata keçirilir. Yeni texnologiyaların tətbiqi iqtisadi inkişafın davamlılığının təmin olunmasında, Azərbaycanın yüksək sosial-iqtisadi göstəriciləri ilə beynəlxalq maliyyə qurumlarının hesabatlarında liderliyinin qorunmasında öz rolunu oynayır. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Davos Dünya İqtisadi Forumunun hesabatlarında Azərbaycan inkişaf etməkdə olan ölkələr sırasında ön yerlərdə qərarlaşır. Bu, ölkəmizdə inklüziv inkişafın göstəricisidir.

Baş redaktor onu da əlavə edib ki, dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq ölkədə ixrac məsələləri mütəşəkkil qaydada, kompleks şəkildə həll edilir. Bu sahədə yeni əlaqə vasitəsi olan “Azexport” portalının yaradılması ölkəmizdə istehsal olunan məhsullar barədə ətraflı məlumatların xarici investorlara çatdırılması üçün yeni metod kimi sərfəlidir. Nəticə olaraq “Made in Azerbaijan” brendi dünyada tanınır və şöhrət qazanır.

Vüqar Rəhimzadə diqqəti ölkəmizdə həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq yaradılan ixtisaslaşmış sənaye parkları və sənaye məhəllələrinə yönəldib. Bildirib ki, 7 sənaye parkının və 5 sənaye məhəlləsinin mövcudluğu sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühitini yaradır. Ümumilikdə ölkəmizdə sabitliyin və normal iqtisadi mühitin yaradılması Azərbaycanın böyük investisiyalar məkanı kimi tanınmasında və nüfuz qazanmasında əhəmiyyətli rol oynayır. Hazırda investisiyaların həcmində müşahidə olunan artım da bunun bariz nümunəsidir. O da məlumdur ki, Azərbaycan investisiya cəlbediciliyini qorumaqla yanaşı, artıq investisiya yatıran ölkə kimi də tanınır. Dövrün tələblərinə uyğun hədəflər müəyyənləşdirilərkən daim bu çağırış diqqətə çatdırılır ki, əgər inkişaf etmiş dövlətlər sırasında addımlamağı əsas məqsəd seçmişiksə, dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən bəhrələnmək, idarəçilik sistemində təkmilləşmə aparmaq mütləqdir. Bu gün Azərbaycanın inkişaf modelinin dünyaya nümunə göstərilməsi idarəçilik sistemində təkmilləşmənin təsdiqidir.

Baş redaktor qeyd edib ki, daxili tələbatın yerli istehsal hesabına ödənilməsini “Diamed” dərman istehsalı zavodunun timsalında da aydın görə bilərik. Zavodda 100 iş yeri yaradılıb. Bu müəssisələrin müasir tələblər səviyyəsində qurulması, avadanlıqlarla təchizatı öz növbəsində xarici tərəfdaşlarla əməkdaşlıq əlaqələrinin inkişafında və yeni layihələrin gündəmə gətirilməsində öz sözünü deyir. Qeyd etdiyimiz kimi, daim yeniliyə, təkmilləşməyə xüsusi önəm verən ölkəmiz bütün sahələrdə qazandığı təcrübə ilə nümunədir. Azərbaycanın səhiyyə sistemində təkmilləşmə, beynəlxalq təcrübənin tətbiqi hazırkı dövrün reallıqlarında özünün aydın ifadəsini tapır. Yüksək texnologiya və tam qapalı sistemlə təchiz edilmiş “Diamed” zavodunda istehsal avadanlıqları İtaliya, ABŞ, Almaniya, İsrail kimi inkişaf etmiş ölkələrdən alınıb.

Vüqar Rəhimzadə diqqəti işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri fonunda yaradılan müasir tələblərə cavab verən sosial obyektlərə də yönəldib. Vurğulayıb ki, bu torpaqların malik olduğu potensialdan səmərəli istifadə etməklə, həmçinin burada yaradılan müəssisələrdə istehsal olunan yerli məhsulların ixrac potensialını genişləndirməklə həm əməkdaşlıq imkanlarımız artacaq, həm də bu proses ölkəmizin dayanıqlı iqtisadi inkişafına böyük töhfələr verəcək. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də möhkəm iqtisadi təmələ əsaslanan ölkəmizdə qarşıdakı on il üçün görüləcək işlər, icra mexanizmi tam aydınlığı ilə göstərilir. Qarşıdakı illərdə həyatımızın bütün sahələrinə bələdçilik edəcək sənəddə qüdrətli dövlət, yüksək rifah cəmiyyətinin inkişafı naminə müəyyənləşdirilən vəzifələr elmi cəhətdən təhlil edilir. Bir sözlə, reallıq budur ki, Azərbaycan hər zaman təkmil sosial-iqtisadi göstəriciləri ilə dünyanın diqqətində olub.



**Elçin Bayramlı**

# Sonun başlanğıcı

Elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır.

“Biz ətrafımızı o qədər dəyişmişik ki, indi orada mövcud olmaq üçün özümüzü kökündən dəyişməliyik” - Viner Norbert (ABŞ riyaziyyatçısı, “kibernetikanın atası”)

Qlobal istiləşmə şəraitində Arktika və Antarktidakı, həmçinin Qrenlandiyadakı buzlaqların əriməsi sürətlənib. Artıq buz təbəqəsindəki ərimənin qarşısını almaq mümkün deyil. Son 20-30 ildə bu ərimə daha da sürətlənib və buz təbəqələri çox böyük ölçülərdə yoxa çıxır. Buzlu materikdə hər il nəhəng buz təbəqələri materikdən qoparaq okeana doğru irəliləyir və əriyir.

Təxminən 10-15 il qabaq Arktikada qalın buz təbəqəsindən atom buzqıran gəmilərlə belə yaxınlaşmağın mümkün olmadığı yerlərə, hətta şimal qütbünə belə adi gəmi ilə rahatca gedib gəlmək olur. Son elmi məlumatlar əriminin ehtimal olunandan 100 dəfə daha sürətlə getdiyini göstərdi.

Hesablamalara görə, təkcə Qrenlandiyanın əriməsi dəniz səviyyəsini 7 metr qaldıracaq, bu özlüyündə böyük fəlakətdir, bunun üzərinə Arktika və Antarktidanın da əriməsini əlavə etsək, vəziyyəti təsəvvür etmək çətin olmaz.

Antarktidada tarixdə ilk dəfə 20 dərəcədən yuxarı tempratur qeydə alınıb. Sibirdə tempratur 40 dərəcəyə çatıb. Son bir neçə min ildə bircə dərəcə belə istiləşməyən planetimizin orta tempraturu son 1 əsrdə 3 dərəcə artıb ki, bu da faktiki fəlakət siqnalıdır.

Daha açıq desək, bunlar nəhəng qlobal kataklizmlərin başlayacağını göstərən əlamətdir. Dağlarda buzlaqların əriməsi isə tezliklə qlobal içməli su böhranı yaradacaq və hətta su müharibələrinin baş verəcəyi ehtimal olunur. Ciddi qlobal ərzaq böhranı gözlənilir. Təbii resurslar tükənir.

Konkret olaraq bu proses antropogen təsirlərin, yəni birbaşa insan fəaliyyətinin nəticəsidir. Baxmayaraq ki, iri sənaye oliqarxlarının oyuncaq “elmi” mərkəzləri diqqəti problemin əsas səbəbindən yayındırmaq üçün bəşəriyyətə nağıl danışırlar. Guya ki, bu vəziyyət Günəşdə gedən hansısa reaksiyalar, nə bilim, kosmosda baş verən hansısa proseslərin təsiri ilə imiş. Halbuki elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır.

Burada yeganə təqsirkar insanların özləridir. Daha doğrusu bəşəriyyətin idarəedici qüvvələri. Kapitalizm sistemi planetdə bütün canlı aləmin axırına çıxmağa rəvac verir. Lazımsız istehsal həcmi, vəhşicəsinə istehlak qudurğanlığı, lüzumsuz rəqabət mühiti və çoxlu sərvət əldə etmək həyasızlığı dünyanı məhvə aparır. Qısası, öz evimizi, yəni dünyamızı şüursuzcasına dağıtmaq, bütün canlı üçün biz insanlar əlimizdən gələn hər şeyi edirik.

Ultrakomfort həyat arzusu, fasiləsiz istehlak xəstəliyi, dəb və özünü başqalarından üstün göstərmək sindromu dünyanın axırına çıxır. Bəzi nüfuzlu alimlərin fikrincə, artıq planetimizi, canlı aləmi xilas etmək, bu qorxunc prosesi dayandırmaq və hər şeyi geri qaytarmaq üçün son imkanlar da itirilib. Yəni, artıq demək olar ki gecdir...

Elə bu günlərdə ABŞ Konqresində və Ağ Evdə lobbiçi, CERN Laboratoriyasının ”Gələcək Halqa Toqquşdurucusu” layihə qrupunun və E.Lourens adına Livermor Milli Laboratoriyasının Lazer Termonüvə Reaksiyaları Milli Kompleksinin istifadəçi qrupunun üzvü, ABŞ-ın dörd prezidentinin müşaviri olmuş Eqon Çokaian bütün dünya ictimaiyyətinə müraciət edib. Nüfuzlu alım artıq qlobal kataklizmlərin başlandığını və dünyanın yaxın bir neçə il məhv ola biləcəyini bəyan edib.

Digər alimlər də artıq planetimizdəki ekoloji proseslərin qarşısıalınmaz, geridönməz formaya keçdiyini etiraf ediblər. Yəni biz ,necə deyərlər, “bir balaca” gecikmişik. Bir neçə il əvvəl BMT-də dünya dövlətlərinin nümayəndələri müzakirə apardılar ki, qlobal istləşmənin sürətini azaltmaq üçün istehsal və atmosferə tullantılarının həcmi azaldılsın.

Hətta maksimum tədbirlər belə ümumi orta temperaturun artımını 3 dərəcədən aşağı salmağa qadir deyil. Halbuki, dövlətlər minimum azalmanı belə qəbul etmək istəmirlər. Bunun üçün Kioto protokoluna baxmaq kifayətdir. İri sənaye dövlətləri protokola qoşulmamaqla göstərdilər ki, onlar planetimizin xilasında yox, özlərinin müvəqqəti nüfuz və üstünlüyündə maraqlıdırlar. Kasıb ölkələr isə deyirlər ki, biz də sizin kimi yaşamaq istəyirik, ona görə də sənayeni azalda bilmərik.

Misal üçün, ABŞ təkbaşına dünya ekologiyasının korlanmasında 40 faizlik paya malikdir. Halbuki onun əhalisi dünya əhalisinin cəmi 3 faizini təşkil edir. Çin və Hindistan deyirlər ki, biz hərəmiz milyard yarım əhalini təmin etməliyik, insanlarımızın varlı ölkələrdəki kimi yaşamaq haqqı var, ya hamı eyni yaşayacaq, ya da biz heç nəyi ixtisar edən deyilik, yəni zərərli sənaye sahələrini və onun tullantılarını azaltmayacağıq.

Bax, dünyamız belə bir şüursuz vəziyyətdə dağılmağa doğru gedir. Bunun səbəbi, hələ də dünyamızda ədalətli və ağıllı insan cəmiyyəti qura bilməməyimizdədir. Nə qədər ki, insanlar sağlam təfəkkürə yiyələnə bilməyib, labüd bəşəri fəlakətdən sığortalanmaq mümkün olmayacaq. Artıq sonun başlanğıcındayıq...



# Zeytun demə, möcüzə de

## Xərçəngdən diabetə, qastritdən göbələyə qədər onlarla xəstəliyin dərmanı zeytun yağının 5 min ildən çox yaşı var

***20-dən artıq növü olan zeytun, əsasən, Cənubi Avropa, Afrika, Cənubi Asiya və Avstraliyanın mülayim isti və tropik zonalarında yayılıb. Zeytun A, D, E və K vitaminləri baxımından çox zəngindir, onun meyvəsindən alınan yağ bədəndə kalsium itkisinin qarşısını alır, qalın bağırsaq, prostat, mədə və pankreas xərçənginə tutulma riskini azaldır, ürək-damar xəstəliklərindən qoruyur.***







Zeytun yağından mütəmadi istifadə qaraciyəri sağlam saxlayır, sümükləri gücləndirir, çünki zeytun çox güclü antioksidantdır. Zeytundan əldə edilən yağ qəbizliyi aradan qaldırır, həzmə kömək edir, mədə narahatlıqlarını aradan qaldırır, həmçinin virus, bakteriya və göbələklərə qarşı çox güclü qoruyucudur. Bundan əlavə zeytun və ondan alınan yağ uşaqlarda sağlam diş inkişafına kömək edir, habelə hüceyrələri yeniləyərək yaşlanmağı gecikdirir və dolayısı ilə ömrü uzadır.

Zeytun yağının tərkibində olan “oleacanthol” adlı maddə iltihab əleyhinə müsbət təsir göstərir. Zeytun yağı xolestrolun miqdarını azaldır deyə ürək-qan-damar xəstələri üçün yaxşı qida hesab edilir: “Tərkibində E vitamini olduğu üçün antioksidantdır, bu isə xərçənglə mübarizədə effektivdir. Tərkibində həll olunan “saturated” yağları olduğu üşün diabet xəstələrinə xeyirlidir. Bu yaxınlarda Fransa alimləri sübut etdi ki, zeytunla qidalanma beyin insultunu, beyinə qan sızmanı azaldır, təsadüfü deyil ki, gündəlik qida rasionunda zeytun yağı ilə qidalanan insanlarda bu xəstəlik nadir rastlanır. 100 qr zeytun yağının tərkibində 14 mg. E vitamini var. Bu isə gün ərzində bizə lazım olan E vitaminin 93% -i deməkdir”.

### Araşdırmalar nə deyir?

Dünyada yaşı 2000-dən çox olan xeyli zeytun ağacı var. Bu isə hələ qədimdə zeytunun və ondan əldə edilən yağın istifadəsini sübut edir. Zeytunun həm meyvəsi, həm yağı, həm də yarpaqları qədim Misirdə qida və tibbi istiqamətlərdə istifadə edilib. Tarixi qaynaqlarda Kleopatranın öz gözəlliyini zeytun yarpağından hazırlanmış maskalarla qoruması barədə yazılar da var.

Araşdırmalar zeytun yağının ehtiva etdiyi E vitamininin insan hüceyrələrinin yenilənməsində böyük rol oynadığını deyir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) isə apardığı bir araşdırmanın nəticələri daha maraqlı faktlar ortaya çıxardı. ÜST-ün araşdırmalarına görə, infarkt və ürək xəstəliklərinə ən az Krit adasında rast gəlinir və burada yaşayan insanlarda infarkt riski minimum səviyyədədir. Çünki Krit adası hələ qədim zamanlardan bəzi zeytun yağının vətəni hesab edilib.

### Xərçəngin qorxduğu qida– zeytun yağı

Tibb elmləri doktoru Şahin Rzayev deyir ki, zeytun yağında xərçəngə qarşı bir çox təsirli maddə var, insan orqanizmi üçün vacib vitaminlərdən olan A, D, E və K vitaminləri hətta zeytun emal edilərək yağa çevriləndə belə öz təsirini olduğu kimi saxlayır: “Dünyada aparılan araşdırmalar zamanı zeytun yağının tərkibində olan bu vitamin və maddələrin xərçəng şişlərinin yaranmasının qarşısını aldığı və hətta radioaktiv şüalardan qoruduğu aşkarlanıb, bunu inkar etmək olmaz.

Zeytundan alınan yağ mədə turşuluğunu azaldaraq qastrit və mədə xorasının təbii yolla müalicəsində əvəzsiz vasitə sayılır. Tərkibindəki vitaminlər uşaqlarda sümük və diş inkişafında əhəmiyyətli rola malikdir, həmçinin bu vitaminlər kalsium qoruyucusudur. Əvvəllər osteoporozdan, yəni sümük əriməsi xəstəliyindən əziyyət çəkən insanlara zeytun yağından istifadə məsləhət görülürdü, bu yağla bədən əzaları masaj edilirdi”.

Həkim qeyd edir ki, zeytun qaraciyərin dostudur. Onun sözlərinə görə, zeytundan alınan yağın həzm pozğunluqları, öd kisəsi xəstəlikləri və öd kisəsi daşının əridilməsində, bağırsaq xərçəngində və sarılıqda faydalı olduğunu sübut edən yüzlərlə elmi məqalə var: “Bizim ölkədə nədənsə zeytun yağına qarşı fərqli fikirlər formalaşıb. İnsanlar hesab edir ki, kərə yağı daha faydalıdır. Bu kökündən səhv fikirdir. Kərə yağının qanda xolestrolu artırdığını, müxtəlif xəstəliklər yaratdığını bir çoxumuz bilirik, üstəlik, daha sərfəli qiymətə yağ əldə etmək üçün istehsalçının ən ağlagəlməz yollara baş vurduğu danılmazdır. Amma təxminən 6-7 kq zeytundan 1 litr yağ əldə edilir, üstəlik meyvələrinin lət hissəsində 70 %-ə qədər, toxumunda isə 25-30 % yağ var, bu isə o deməkdir ki, bu meyvə başdan-ayağa yağdır və onun istehsalında hər hansı bir fırıldağa əl atılmasına ehtiyac belə qalmır”.

Müsahibimizin sözlərinə görə, yerli alıcılar yerli istehsala üstünlük verməlidir: “Ona görə ki, zeytunun növü çoxdur və hər coğrafiya üçün spesifik növləri yetişdirilir. Hər coğrafiyanın insanı üçün elə o ərazidə yetişən məhsullar xeyirlidir. Bu gün dünyada zeytunun geni ilə oynayıb daha böyük, daha yaraşıqlı meyvələr əldə edirlər. Amma bizim ölkədə yetişdirilən zeytunlar genetik modifikasiyaya məruz qalmayıb, bunu zeytun ağaclarının məhsullarını görəndə aydın hiss etmək olur, meyvələri normal ölçüdədir, irili-xırdalıdır. Ölkəmizdə 6 növdə yerli zeytun yetişdirilir, yerli zeytun ağacları olduqca çox bar verir və ağacların daha məhsuldar olması üçün kimyəvi tətbiqlərə ehtiyac qalmır. Bol məhsul bol yağa təminat verir. Nəticədə, yerli alıcı sərfəli qiymətə xeyirli məhsul əldə edir”.

### Zeytunun yağı qədər tumu da faydalıdır

Zeytunun meyvəsi, yağı qədər tumunun da faydası var. Müasir insanlar arasında zeytun tumunun udulması ilə müalicə edilən xəstəliklər barədə məlumatı olan azdır, amma əvvəllər insanlar bəzi xəstəlikləri məhz zeytun tumu udaraq müalicə edirdilər. Keçmiş SSRİ-də başlanan araşdırma 25 ildən sonra Rusiyada yekunlaşanda da bu sübut edildi. 1985-ci ildə başlayan araşdırma çərçivəsində mədə problemi olan yüzlərlə insana mütəmadi olaraq hər gün bir neçə zeytun tumu udması tapşırılmışdı, 2005-ci ildə rus alimlərinin araşdırmanın nəticəsini açıqlamasından sonra məlum oldu ki, mədə xorasından, qastritdən əziyyət çəkən insanlar bu illər boyunca hər gün bir neçə zeytun tumu udmaqla xəstəliklərini unudublar. Həmçinin babasildən, bağırsaq keçməzliyindən qorunmaq üçün də zeytun tumu əvəzsiz vasitə hesab edilir.

### Zeytun yağı 5 min il xarab olmur

Zeytun yağı əsrlərdir ən yaxşı, ən mükəmməl yağ hesab edilir. Normal qaydalara riayət edilərək hazırlanan zeytun yağı, hətta ərslər boyu xarab olmadan qala bilir. Bunu arxeoloji qazıntılar zamanı 3-5 min il əvvələ aid olan qəbirlərdə tapılan zeytun yağları sübut edib. Zeytun yağı soyuducuda donmalıdır, bu xüsusiyyəti onun təbii olduğunu sübut edir.

O ki qaldı istehsal növlərinə, mütəxəssislər məsləhət görür ki, daha çox 2 növ zeytun yağı istifadə edilməlidir. Bunlardan biri süzmə, digəri isə tam təbii olanıdır. Bu iki növün digərlərinə nisbətən daha təbii və zeytunların tərkibinin dəyişmədən yağa çevrildiyi elmə məlumdur.

Zeytunun adı müqəddəs Quranda da çəkilir. Məhəmməd Peyğəmbər də öz hədislərində “zeytun yağı yeyin və onunla yağlanın, zeytun yağı ilə müalicə olunun, çünki o, bərəkəti bol və mübarək bir ağacın meyvəsindən yaradılıb” deyib. Hədisdə zeytun yağını yalnız yemək deyil, həmçinin bədənə xaricdən də tətbiq edilməsinin faydaları barədə məsləhətlər var.

### Böyüyə, kiçiyə, qadına, kişiyə - hər kəsə dərmandır

Zeytun yağı ilə masaj qan axışını nizamlayır, damarların daha yaxşı qan ötürməsinə səbəb olur. Həmçinin, kiçik damarların üzə çıxaraq ayaqlara xoş olmayan görüntü verməsini də zeytun yağı ilə aradan qaldırmaq olur, damarların göründüyü bölgəyə zeytun yağı ilə masaj tətbiq etmək problemi nisbətən aradan qaldırır.

Dabanlarında çatlar əmələ gəlmiş insanlar gün ərzində bir dəfə bu yağı dabanlarına tətbiq etsə problem həll olar. Soyuq havalarda əllərə və üzə çəkilən zeytun yağı dərini donmaqdan qoruyur. Saçlardakı boyanı, üzdəki kosmetikanı təmizləmək üçün əvəzsiz vasitə hesab edilən zeytun yağı yaralanmalar zamanı da möcüzəvi sağaltma təsiri göstərir.

Kəsilmiş və ya yara çıxmış dəriyə zeytun yağında isladılmış tənzif qoyanda yaranın sağalma müddətini tezləşdirir. Günəş yanıqları zamanı zeytun yağının tətbiqi minimal ağrı və maksimal sağalma deməkdir. Ağcaqanadlar zeytun yağı ilə yağlanmış dərini dişləmir, dəri gənələri zeytun yağı çəkilmiş dəridə məhv olur. Təraş edilmiş bölgəyə zeytun yağı tətbiq etməklə dərini daha zərif saxlamaq mümkündür.

Qurumuş dodaqlar üçün ən yaxşı məlhəm, quru saçlar üçün ən yaxşı şampun, qırılan dırnaqlar üçün ən yaxşı dərman hesab edilən zeytun yağını duş şampununa əlavə etməklə hər duşdan sonra daha təravətli dəriyə sahib olmaq olar. Doğuşdan sonra dəridə qalan çat izlərini, əmizdirmə zamanı döş gilələrində yaranan yaraları da bu yağla yox etmək mümkündür. Yeni doğulan körpələrin yanlarında əmələ gəlmiş səpkilərə və başlarında yaranmış qabıqlara tətbiq edildikdə effektiv nəticə əldə etmək olur.

*Lalə Mehralı*

# Söyüşkən, söydürən və söyülən ailələr...



***Yaşadığımız şəhər, qəsəbə və kəndlərdə ta qədimdən hamı bir-birini müəyyən xasiyyətlərinə və keyfiyyətlərinə görə tanıyıb. Söz düşəndə deyiblər ki, filan tayfa söyüşcüldür, filan tayfa xəstədir, filan tayfanın əxlaqı yerində deyil, filan tayfa pintidir və sair. Bu gün həmin tayfalardan biri haqqında-söyüşcül, söydürən və söyülən ailələr, adamlar haqqında danışmaq istəyirəm. O adamlar ki, bu xüsusiyyətləri ilə heç də cəmiyyət tərəfindən normal qarşılanmırlar. Baxmayaraq ki, onları məzəmmət edənlər çox olur, lakin qanlarındanmı, təbiətlərindənmi irəli gəlir, bu xüsusiyyətlərindən əl çəkə bilmirlər, necə deyərlər, tərbiyə olunmurlar. Elə buna görə də harada belə adamlarla qarşılaşırıqsa, onları qınamalı oluruq...***

### Söyüşcül adamlar

Bəli, necə olur ki, belə bir tayfa formalaşır, bu barədə məlumatımız olmasa da, lakin hər birimiz yaşadığımız yerlərdə bu cür insanların olduğunu görmüşük, tanımışıq. Hər kəs də onlarla söhbətdə dərinlərə getməyib, bilib ki, gözünü yumub, ağzını açacaq. Yəni bu cür insanlar söyüşcül xüsusiyyətlərinə görə əsla utanmır, çəkinmirlər. Onlar düşünürlər ki, bu, adi bir şeydir, söyüşlə danışanda nə olacaq ki?..

Beləliklə, babanın söyüşcüllüyü oğula, oğulun söyüşcüllüyü nəvəyə keçə-keçə bir tayfanın söyüşkən olması ilə nəticələnir. Düşünəndə, həqiqətən də belə ailələrdə yaşamaq nə qədər çətindir. Məsələn, belə bir ailəyə gəlin getmisən, qayınatan bir səhvin olanda, sənə tənbehi söyüşlə edir. Sən də ailəndə heç vaxt belə sözləri eşitmədiyinə görə, gəl, bu sözləri qəbul et görüm, necə edirsən?

Elə ailələrdə yaranan və boşanmalarla nəticələnən problemlərdən biri də söyüşcül ailələrdir. Belə ki, gəlin bu söyüşləri qəbul etmir. Ailə isə qəbahətinin nə olduğunu anlamaq istəmir. Ancaq arada bir ailə dağılır.

Tanıdığım bir neçə belə ailə var. Söyüşcül ailələr, adamlar deyiləndə tək kişilər deyil, həm də qadınlar, uşaqlar da nəzərdə tutulur. Rayonda yaşayanda qonşuluğumuzda belə ailələr var idi. Maraqlıdır ki, onlar tək dalaşanda deyil, mehriban söhbət zamanı da söyüşlərdən istifadə edirdilər. Bunu bəzi qonşularımız gülə-gülə, bəziləri isə başını bulamaqla qarşılayırdı. Belə söhbətlərdə biz də iştirak edəndə anam bizə gözü ilə anladırdı ki, buradan uzaqlaşın.

Qonşumuz Həsən kişi vardı. Yaman söyüşcül idi. Axşamçağları kişilər yığılıb məhəllədə nərd oynayırdılar. Onlar ki bir yerə toplaşdı, Həsən kişi də gəldisə, deməli, qız-gəlin o səmtdən keçməməli, qapı-pəncərələr bağlanmalı idi ki, Həsən kişinin söyüşləri bu dəqiqə pəncərələrdən içəri dolacaq. Elə arada qulağımız bu sözləri də çalırdı ki, "ay Həsən kişi, qız-gəlin var, ağzını təmiz saxla". Amma Həsən kişiyə bu sözlər kar edirdimi? Elə ki, dara düşdü və yaxud da qələbə qazandı, açırdı ağzını, tökürdü söyüşləri.

Həsən kişinin arvadı da özündən geri qalmırdı. Onun da özünəməxsus söyüşləri vardı ki, qadınlarla söhbətində istifadə edirdi. Anamgil "ay Səlbi, söyüşsüz danışa bilmirsən?" deyəndə cavabı bu olurdu ki, söyüş söyməyəndə canımdan tikan çıxmır.

Övladları da təbii ki, özlərinə oxşayırdı. Onlar da söyürdülər. Məhəllədə dəfələrlə uşaqların dalaşdığının şahidi olurduq. Səbəbkar isə həmin ailənin iki oğlunun söyüşləri ilə bağlı olurdu. Dəfələrlə döyülürdülər də. Lakin yenə də söyüşdən kənar qalmırdılar.



...Gün o gün oldu ki, həmin söyüşcül oğlanlar böyüdü, Həsən kişi elçi getdi, evinə gəlin gətirdi. Gəlin gəldi, gördü, nə? Qayınata, qayınana, qayın, ər-hamısı söyüşcüldür. Yazıq gəlinin bunların içində necə deyərlər, başı havalandı. Bir də gördük ki, budur, səsi məhkəmədən gəlir. Ailəsi dağıldı, bir uşaqla qayıtdı atası evinə. Ona qonşular nəsihət edəndə ki, "ay bala, onların söyüşkənliyinə görə ailəni dağıtma, bunlar belədir", dedi ki, "mən götürə bilmirəm. Yoldaşın ağzını açır, valideynlərimi söyür. Onun buna haqqı yoxdur. Sonra da deyir ki, mən söyüşcüləm, gərək məndən inciməyəsən. Belə şey olar? Mənim valideynlərimin günahı nədir?"..

Psixoloq Günay Vəliyeva deyir ki, söyüş emosiyaların təzahürüdür. Odur ki, insan həm sevinəndə, həm də əsəbiləşəndə söyüş söyə bilir. Lakin söyüş var, söyüş. Biri var, öz-özünə deyinəsən, kiminsə haqqında yüngülvari söyüş söyməklə ürəyini boşaldasan, biri də var vulqar sözlərlə ağzını açasan. Bax, belə olanda təbii ki, ailələr dağılacaq. Axı hər kəs söyüşcül ailədə böyümür, bircə dəfə də ailəsində bu cür sözlər eşitmir. Buna görə də söyüş onda qıcıq yaradır və bu sözlərdən bezərək o mühitdən uzaqlaşmağa çalışır. 5-6 yaşında olan uşağa söyüş söyməsini tərgitmək asandır, nəinki 20-25 yaşında olan gəncə.

Başqa bir qonşumuz da söyüşcül idi, həm də ailəliklə dalaşqan idilər. Məhəllədə o adam qalmırdı ki, dalaşmasınlar, həm də ailəliklə bir yerə yığılıb həmin adamı döyüb gedirdilər. Qızlarının qonşularla dalaşanda ağzından çıxan sözlərin bircəsini, necə deyərlər, boynuma diri ilan sarısalar, deyə bilmərəm. Elə sözlər danışırdı ki, qulaqlılar olsun, eşitməsin. Ailənin ümumilikdə hərəkətini gözlülər olsun görməsin. Həmin ailənin oğlanlarına qız verən, qızlarını alan olmadı. Axırda məhəttəlçilikdən qohumla evlənən, başqa rayona gedənlər oldu. Bu gün də onları xatırlayanda özümdən utanıram ki, o söyüşləri eşitməli, o mənzərələri görməli olmuşam.

### Söydürən əmilər, dayılar, nənələr, bibilər...

Təbii ki, söyüşcül ailələr bunu övladlarına ötürdükləri kimi, nəvələrinə də ərməğan etmiş olurlar. İndi sosial şəbəkələrdə də dəbdədir ki, əmilər, dayılar, nənələr, xalalar, bibilər uşağa söyüş öyrədir, söydürür və videosunu çəkib "Tiktok"a, "İnstagram"a, "Fecebook"a yerləşdirir, bundan gəlir əldə etməyə çalışır. Lakin bicə anlıq da olsa düşünmür ki, o uşağın gələcəyini baltalayır, xarakterini məhv edir.

Söyüşcül ailələrin ailə qurub onlarla birlikdə yaşayan övladlarının uşaqlarına da sözsüz, bu keyfiyyətlər sirayət edəcək. Yəni uşaq ailədə gözünü açıb nə görürsə, o dəyərlər çərçivəsində də böyüyür. Babanənə, ata, əmi də təzə dili açılmış uşaqlara söyüş öyrədib, sonra onu danışdırıb uğunurlar.

*Ardı Səh. 14*





# Söyüşkən, söydürən və söyülən ailələr...



Əvvəli-Səh-13

Hələ evə qonaq gələndə də onun məharətlərini göstərməsi üçün qızışdırıb ortalığa salırlar. Yazıq uşaq da nə qansın ki, nə danışır? Söyləyir, ətrafdakıların kloununa çevrilir.

Böyüdükcə, bu xüsusiyyət də onunla birlikdə böyüyür ki, bağçada, məktəbdə, gələcəkdə işlədiyi kollektivdə bu xüsusiyyət onu hörmətdən salır. Hətta bu xüsusiyyət savaşa, həbsə qədər gedib çıxır. Valideynlər həbsxanaya övladlarının arxasınca gedir, onun nə üçün həbs olunduğunu bilir, lakin evə qayıdandan sonra nəvələrinə yenə də söyüş öyrətməkdən əl çəkmirlər.

Psixoloq Günay Vəliyeva vurğulayır ki, uşağa söyüş öyrətmək qəti şəkildə qəbuledilməzdir. Bunu edərkən böyüməkdə olan bir uşağın sabahına qəsd edildiyi düşünülməlidir. Düşünülməlidir ki, axı bu söyüş sabah uşağın taleyini həll etmiş ola bilər. Odur ki, valideynlər buna imkan verməməlidir. Ən yaxın qohum olsa belə, ona acıqca övladlarına bu cür vulqar sözləri öyrətməsini qadağan etməlidir.

Mənə müraciət edən valideynlər olur. Uşaqlarına söyüş öyrədən qohumların qəlbini qırmamaq üçün dillənmədiklərini deyirlər. Mən isə onlara məsləhət görürəm ki, utanmaq, qəlb qırmamaq kimi hisslərlə övladınızın həyatının məhvinə doğru irəliləyirsiniz. Sabah söyüşlərin onun həyatına vurduğu zərbələrin ağırlığını siz yaşayacaqsınız.

### Söyüş xəstəlik və sindromdur

Beləliklə, söyüşcül ailələr və onların söyməyi öyrətdikləri yetirmələri yaşadığı şəhər, qəsəbə, kənddə ailəsinə həmişə söyüş gətirir. Dəfələrlə şahidi olmuşuq ki, söyüşün nə olduğunu bilməyən ailələrin üzvləri belə söyüşcül adamların söyüşünə qarşı reaksiyasız qalmır, onların söyüşünə elə söyüşlə də cavab verir. Buradan belə nəticə hasil olur ki, söyüşcül insanlar digər insanların da söyüş söyməsinə səbəb olurlar. Belə olanda isə ortalıq qarışır, davadalaş başlayır, məsələ hüquq-mühafizə orqanlarınadək böyüyür.

Söyüşü psixoloq və doktorlar xəstəlik kimi də dəyərləndirirlər. Hətta onun bir sindrom olduğunu təsdiqləyənlər də var. Məsələn, Turet adlandırılan sindrom fərdlərin qeyri-iradi və təkrarlanan hərəkətlər etməsinə səbəb olan bir xəstəlikdir. Bu sindrom ilk dəfə 1985-ci ildə fransız həkim Gerard Gilles de La Tourette tərəfindən aşkar edilmişdir. Sindrom uşaqlıqda başlayıb yetkinliyə qədər davam edə bilər və həm kişilərdə, həm də qadınlarda baş verir.



Bu sindromlu insanlar birdən yüksək, mənasız səslər çıxara və özlərinə hakim ola bilməyəcək şəkildə qeyri-iradi hərəkət edə bilərlər. Turet sindromu da bəzi insanlarda qeyri-iradi söyüşlərə və ya pis sözlərə səbəb olur. Bu sindromlu insanlarda göz qırpma, dilin çölə çıxması və çiyin çəkmə kimi bədən hərəkətləri də müşahidə edilir ki, bunu söyüş söyən çox sayda insanlarda da müşahidə etmək olur.

Turet sindromu fərdlərin sosial mühitdə, iş və məktəb həyatında arzuolunmaz hərəkətlər etməsinə, idarəolunmaz səslər çıxarmasına səbəb olur. Bu sindromlu fərdlər həyatlarının bütün sahələrində çıxardıqları səslər, söyüş səbəbiylə çətin vəziyyətdə ola bilərlər. Fərdlərin yaşadığı bu çətinliklər depressiya, sosial fobiya, özünə inamsızlıq, özünə hörmətsizlik kimi psixoloji problemlərə yol açır.

Söyüşlər hər zaman heç də təhqir xarakteri daşımır. Həm də əzizləmə şəklində ola bilir. Məsələn, bir də baxırsan ki, kimsə övladını sevələyir və ona "it balası baldır", "köpək qızı şipşirindir", "itin küçüyünün dilinə bax" kimi ifadələr də işlədilir.

Maraqlıdır ki, görəsən söyüşlərin bütün növlərinin arxasında Turet sindromu dayanır, yoxsa?..

### Müasir dövrdə söyüş...

Söyüşcül nəsillərdən, onun davamçılarından, söyüş öyrədilən uşaqlardan danışdıq. Bir qədər də müasir dövrdə sosial şəbəkələrdə söyüş söyənlərdən, status və ya şərhlərə söyüşlə cavab verənlərdən danışaq. Son vaxtlar tez-tez qarşılaşdığımız situasiyalar belə fikirləşməyə rəvac verir ki, biz artıq kütləvi şəkildə Turet sindromuna yaxalanırıq? Eşitdiklərimiz və oxuduqlarımız söyüşün artıq təhqir formasıdır. Bəs, nə üçün təhqir?

İnsanların haqsız olduqlarını qəbul edə bilmədikləri zaman təhqir yolu ilə hisslərini boğmağa çalışdıqlarını bildirən psixoloq Onur Okan Demirci bu vəziyyətin də dərin psixoloji təsirlərdən yarandığını bildirib.

Son zamanlar cəmiyyətdə tez-tez mediada əks olunan qəzəb və təhqirləri dəyərləndirən psixoloq bu hadisələrin dərin psixoloji təsirlərlə yaşandığını ifadə edərək, bunun ən əhəmiyyətli səbəblərindən birinin də insanın özündə əskik hiss etdiyi boşluqları aradan qaldırmağa çalışması olduğunu vurğulayır: İnsan özünün qeyri-adekvat olduğu hisslərini ortaya qoyaraq və ya diqqət çəkəcəyindən narahat olaraq təhqirə müraciət edə bilər.

Mütəxəssislər insanların danışıq vaxtının 0,3-0,7%-ni söyüşlərə sərf etdiyi təxmin edirlər. Bu nisbət ilk baxışda aşağı görünə bilər. Lakin nitqin məzmununun nə qədər geniş olduğunu nəzərə alsaq, bu nisbət heç də kiçik deyil. Söyüş tez-tez qəfil refleks kimi də görünür.

### Söyüş söyməyək!

Təbii ki, başımızın salamat olmasını, qonşu-qohumlarla münasibətlərin yaxşı olmasını, ailəmizdə problemlərin yaranmasını, cəmiyyət arasında hörmətdən düşməyi istəmiriksə, söyüş söyməyək. Sözsüz, hər birimiz əsəbi halda olarkən deyinməyə başlayırıq. Bunun heç kimə zərəri yoxdur. Təklikdə ürəyimizi hansısa kiçik söyüşlərlə yumşaltmaq əslində sağlamlıq üçün faydalıdır.

Lakin söyüşə artıq özündən başqa daha bir nəfər də qatılırsa, deməli, bunun sonunda xoşagəlməyən nə isə ola bilər. Məsələn, iki dostun söyüşlə zarafatının sonda davaya, ərin arvadını söyməsinin ailənin dağılmasına, uşağa öyrədilən söyüşlərin onun sonrakı həyatındakı problemlərə səbəb olacağı kimi.

Beləliklə, söyüş söyməyək. Ağzımızı təmiz saxlayaq. Hətta dəstəmaz aldıqdan sonra ağızdan çıxan istənilən bir söyüş dəstəmazı pozursa, dəstəmaza yenidən ehtiyac yaranırsa, deməli, söyüş insana və insanlığa layiq deyil.

Söyməyək, söyülməyək, söydürməyək... Bu, ən yaxşısı ola bilər.

***Mətanət Məmmədova***

## Rusiyalı politoloq: "Ermənistanın siyasəti ya ikiüzlülükdür, ya da şizofreniya"

Belə bir təəssürat yaranır ki, Ermənistan öz destruktiv siyasətini davam etdirmək niyyətindədir. Regionda baş verən son hadisələrə obyektiv qiymət verildikdə belə nəticə çıxır. İrəvan faktiki olaraq Bakı ilə danışıqlar prosesindən tamamilə geri çəkilib və eyni zamanda sərhəd zonasında Azərbaycan mövqelərinin atəşə tutulmasını intensivləşdirir, silah və texnikanı şərti sərhədə çəkir. Buna sübut kimi bu yaxınlarda texniki müşahidə vasitəsi ilə çəkilmiş və Laçın istiqamətində Ermənistan ordusunun artilleriya qurğuları və hərbi personalı olan bütöv bir hərbi texnika kolonnasının izləndiyi videonu göstərmək olar. Və bütün bunlar müxtəlif erməni xadimlərinin əzbərlədiyi və bütün beynəlxalq platformalarda təkrar etdiyi Azərbaycanın qarşı "soyqırım" və "aclıq" ittihamları fonunda baş verir.




Bu o deməkdirmi ki, Ermənistan "səbirli" xalqın konspektini tamamlamaq üçün yeni hərbi eskalasiya hazırlayır və bunun üçün təbii ki, Azərbaycan və Türkiyə günahkardır? Ermənilər bu işdə kimin dəstəyinə arxalanırlar?

Rusiyalı politoloq, Rusiya Elmlər Akademiyasının Çin və Müasir Asiya İnstitutunun elmi işçisi, "Arxont" jurnalının baş redaktoru, Etnik və Beynəlxalq Araşdırmalar Mərkəzinin prezidenti Anton Bredixinin fikrincə, Ermənistan tərəfinin gözlənilən silahlı eskalasiyası ilə bağlı bütün əlamətlər bəlidir. Ekspert "Caliber" analitik mərkəzinə şərhində bayağı, lakin həmişə aktual olan bir həqiqəti xatırladıb: "Təkrar biliyin anasıdır, amma bu ermənilər üçün deyil".

"Paşinyan bir şeyi deyir, Ermənistanın Qarabağı Azərbaycanın ərazisi kimi tanıyaraq sülhə hazır olduğunu iddia edir, əslində isə ortaya tamam başqa cür çıxır: Yerevan artıq işlənmiş sxemlərdən əl çəkmədən Qarabağda separatizmi qızışdırmağa qətiyyən qarşı deyil. Və burada sual yaranır: bu ikiüzlülükdür, yoxsa şizofreniya.

İrəvan Qarabağda və şərti sərhəddə vəziyyəti gərginləşdirir, Qərb mediasına göstərmək üçün qondarma soyqırım mənzərəsini yaradır və deyir: "Baxın, Azərbaycan Qarabağda humanitar fəlakətə nail olmaq üçün hər şeyi edib". Yadda saxlayaq ki, irimiqyaslı müharibələr belə bir sous altında başlayır", - deyə rusiyalı politoloq vurğulayıb.

Ekspert həmişə erməni dövlətçiliyinin postulatı olan üçlüyü- Ermənistan, Qarabağ və diasporu unutmamağı tövsiyə edir.

"Ona görə də Paşinyanın indi diasporadan dəstək alaraq və Parisin razılığını alaraq təxribatlar zəncirinə can atması faktdır. Neçə dəfə bu vəziyyəti müzakirə etmişik, Paşinyan sülh vəd etmişdi, ilin sonuna kimi sülh müqaviləsi imzalayacağına ümid etdiyini bildirsə də, baş nazir Ermənistana qayıdan kimi dərhal bu sözlərini "unutdu".

Məncə, rəsmi İrəvan revanşizmə güzəştə getmək və regionda yeni gərginliyə başlamaq barədə ciddi qərar verib. Yenə də əminəm ki, Ermənistanın avropalı sponsorlarından biri, çox güman ki, Paris bütün mümkün nəticələrə yol verib və vəziyyətin gələcək inkişafını diqqətlə izləmək lazımdır", - A.Bredixin vurğulayıb.

***Tərcümə - Elçin***

*Günlərin bir günündə Molla Nəsrəddin oğlu ilə səfərə çıxır. Yol uzaq, günəş qızmar. Molla oğlunu uzunqulağa mindirir, özü isə piyada gedir. Qarşıdan gələn bir dəstə adam uşağın uzunqulağa mindiyini görüb gileylənir: “Bu da indiki cavanlar. Heç böyüyə hörmət etmirlər. Cavan uşaq eşşəyə minib, yazıq qoca isə piyada gedir”. Bu sözdən utanan uşaq eşşəkdən düşür və atasına israr edir ki, o özü minsin uzunqulağa. Molla eşşəyə minir. Bu dəfə qarşıdan gələn başqa bir dəstə deyir: “Bunlara bir baxın. O boyda kişi eşşəyə minib, yazıq uşaq bu istidə piyada gedir”.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# Kütlənin ziyalısı olmalıdırmı?









Bu sözdən sonra molla oğlunu da tərkinə alır. Yola davam edirlər. Qarşıdan gələn başqa bir dəstə: “Siz bir bunlara baxın. İkisi birdən minib eşşəyə, yazıq heyvan nəfəs ala bilmir”. Molla bilmir nə etsin, yenə qınağa tuş gəlməmək üçün həm özü, həm də oğlu eşşəkdən düşüb piyada gedirlər. Qarşıdan gələn digər dəstə deyir: “Bu axmaqlara bir baxın. Günün altında piyada gedirlər, yanları ilə atıla-atıla gedən eşşəyə minmək ağıllarına gəlmir”.

Bu hadisəni niyə xatırladım, bilirsinizmi? Bu günlərdə Ramiz Rövşəni, Rasim Balayevi, arxasınca da Akif İslamzadəni hədəfə alan medianı, sosial şəbəkə istifadəçilərini izlədikcə xatırladım. Media bilirsiniz kimdir? Molla Nəsrəddinin ətrafı. Molla eşşəyə minir, söz edirlər, oğlunu mindirir, vedrə qoşurlar, ikisi birlikdə minir, şəbədə edirlər, heç biri minmir, yenə lağ edirlər. Yəni, o ətraf bütün hallarda çeynəyəcək saqqız tapır. Media və sosial şəbəkələr də belədir. Nə istəyir, niyə istəyir, necə istəyir, nə özü bilir, nə oxucusu.

Rasim Balayevin Prezidentlə görüşdə işlətdiyi bir ifadəni hədəfə aldılar. Mükafatı burnundan gətirdilər adamın. Nə istədiyini bilməyən “hərşeyşünaslar” sosial şəbəkələrdə ağzına gələni yazdı, təhqir etdi, yerdən-yerə vurdu. Rasim Balayevin təltif edilməsini niyə sinirə bilmədi bu camaat? Çünki əksəriyyət başqasının uğurunu istəmir, gözü götürmür, qarnının qurdları qımıldayır. Ömrünü Azərbaycan kinosuna vermiş 75 yaşlı bir aktyorun prezidentdən mükafat alması, ömrünün son illərini rahat yaşaması iynə kimi batır kütləyə.

Rasim Balayev düz deyir, bu insanlar kütlədir, qaragüruhdur. Ömrünün ən gözəl illərini incəsənətə, mədəniyyətə, kinoya verən birinə qarşı bu ədəbsizliyi etmək qaragüruh işidir. Ekranda qəhrəmanı oynayıb deyə, həyatda da Babək, Nəsimi, Beyrək hünəri gözlədilər aktyordan. İşsiz qalanda, ehtiyac içində yaşayanda heç kimin yadına düşmədiyi, necə yaşadığı ilə maraqlanmadığı aktyor mükafatlandırılanda qəfil yadlarına düşdü.

Ramiz Rövşəni də hədəfə almışdı sosial şəbəkələr bir neçə gün əvvəl. Facebookun Azərbaycan seqmentində bir bənd şeir paylaşıb müəllifinin Necip Fazıl Kısakürək olduğunu iddia edənlər oldu. Şeir Ramiz Rövşənin “Yavaş-yavaş sevdim səni” adlı şeirinin 5-ci bəndi idi. Türkcəyə tərcümə edilib Necip Fazılın fotosu fonunda montaj edilən bu bənd türk şairin adına yazıldı. Amma nə şeirin davamını, nə əlyazmasını, nə də şairin nəşr edilmiş kitabından nümunə göstərən oldu. İddia edənlərin bircə arqumenti vardı, Necip Fazıl Ramiz Rövşəndən böyükdür, deməli, birinci o yazıb.

İnternet təhlükəli və soyuq silahdır. Bir də görürsən sənin heç vaxt istifadə etmədiyin cümləni, fikri sənin adından montaj edib paylaşıblar, camaat da partapart sənin qabırğana döşəyir. Heç kim əslini araşdırmır, real olub-olmaması ilə maraqlanmır. Ramiz Rövşənin şeirini Necip Fazılın adı ilə montaj etməyi müasir texnologiyadan anlayan ən sadə adam da bacarar. Bu fotoya inanıb Ramiz Rövşəni plagiatlıqda suçlayanlar kütlə deyil, bəs nədir? Türk şairin saytının redaktorunun Ramiz Rövşənlə görüşəndə şairin dilindən eşitdiyi şeiri çox bəyənməsi, şairdən icazə alıb şeiri idarə etdiyi sayta qoyması, qoyarkən, sadəcə, həmin bəndini və imzasız qoyması heç kimi maraqlandırmadı. Böhtan atmağa təzə adam tapmışdılar axı. Ramiz Rövşən bununla bağlı öz səviyyəsini qoruyaraq açıqlama vermədi, oğlu israr edəndə də deyib: “Qoy elə də bilsinlər. O bənd qurbandır Necip Fazıla”.

“Mən xalq artisti olmaq üçün oxumamışam” deyəndə Akif İslamzadəni qaldırıb dağın başına qoyan kütlə, o, mükafat alanda oradan qaytarıb yerə çırpmağa girəvə gözləyirdi. Qarğa-quzğun kimi fürsət axtarır bəziləri. Xaosdan, intriqadan qidalananlar var axı. Amma 44 günlük müharibədə Azərbaycan Prezidentinin siyasi bacarığını təqdir etdiyinə görə ona qarşı hücumlar da başladı. Dünən “böyük sənətkardır”, “xalqın sərvətidir” dedikləri 75 yaşlı Akif İslamzadənin ünvanına olmazın təhqirləri yağdırdılar, böhtanları döşədilər. İndi siz deyin, bu insanlar kütlə, qaragüruh deyil, bəs nədir?

**Lalə Mehralı**

# “Erməni tərəfi nə qədər hərbi təxribatlara əl atsa belə, sonda məğlub olacaq”

***“Son vaxtlar Ermənistan silahlı qüvvələri sərhəddə müxtəlif təxribatlar həyata keçirir. Bundan başqa Ermənistan ordusunun qalıqlarının və qondarma rejimin silahlı dəstələrinin Azərbaycanın Qarabağ iqtisadi regionunda aktivləşməsi müşahidə edilir. Avqustun 16-sı saat 09:00 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.***



Bu gün həmçinin Ermənistanın kəşfiyyat-diversiya qrupu terror-təxribat əməliyyatları törətmək məqsədilə Ordumuzun Kəlbəcər rayonu İstisu yaşayış məntəqəsi istiqamətində Azərbaycan ərazisinə sızmağa cəhd edib. Hərbçilərimiz erməni kəşfiyyatçılarından birini yaralı vəziyyətdə ələ keçirib. Ermənistan hamilərindən, özəlliklə Fransa və Hindistandan silah sursat və hərbi texnika alması ilə bağlı məlumatlar var”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elman Cəfərli deyib.

Onun sözlərinə görə, görünür, Ermənistanda revanşist qüvvələr reallığı dərk edən praqmatik qüvvələri üstələyir: ”Əks halda bu gördüklərimiz baş verməzdi. Kimlərsə Ermənistan rəhbərliyini inandırıb ki, lokal hərbi toqquşma ilə dnaışıqlar masasında nəyəsə nail olmaq mümkündür. Fikrimcə, Ermənistan rəhbərliyi ağıllı qərarlar qəbul etməli, kənardan qızışdırıcı mövqe tutanlara uymamalıdır. Çünki Azərbaycan dövləti və ordusu çox güclüdür. Yenə hərbi toqquşma baş verərsə, döyüş meydanında ölən fransız, hind yox, erməni əsgərləri olacaq. Hazırkı Ermənistan hökuməti ağıllı qərarlarla erməni gənclərinin məhvinin qarşısını ala bilər. Çünki bu işin geri dönüşü yoxdur. Azərbaycan güclü dövlətdir və haqlı olan tərəfdir. Qarabağ Azərbaycan ərazisidir. Ermənistan tərəfi bu həqiqəti qəbul edir. İndi qalır bu siyasi qərarı rəsmiləşdirmək. Ermənistanın xilası bundan keçir. Azərbaycan dövlətinin siyasi iradə ortadadır. Azərbaycan müharibədə qalib tərəfdir. Bizim kiminsə torpaqlarında gözümüz yoxdur. Ərazi bütövlüyümüzü bərpa etmişik, Qarabağda suverenliyimizi də bərpa edəcəyik. Zəngəzur dəhlizinin açılmasını, Qərbi azərbaycanlı soydaşlarımızın dogma yurdlarına qayıtmasını şərt kimi irəli sürmüşük. Gec-tez bu reallığı hər kəs qəbul edəcək. Erməni tərəfi nə qədər hərbi təxribatlara əl atsa belə sonda məğlub olacaq. Ən yaxşısı yeni itkilərə yol vermədən danışıqlar masasına qayıtmaq və sülh müqaviləsini imzalamaqdır”.

***Ayşən Vəli***

**MÜNASİBƏT BİLDİRİLDİ**

SON SƏHİFƏ
SƏS
17 avqust
2023-cü il

# “13-cü" maaş nədir və kimlərə şamil edilir?




***""13-cü maaş" - ilin sonunda işçilərə pul şəklində ödənilən həvəsləndirici mükafatdır. Məqsəd - işçilərin məhsuldarlığının və effektivliyinin artırılmasıdır". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.***



Onun sözlərinə görə, "13-cü maaş" anlayışı hələ sovet vaxtlarında yaranmışdır: "Əslində bu cür mükafatları ilin nəticələrinə görə mükafat adlandırmaq olar. Lakin sovet



vaxtlarında xalq arasında bu mükafata "13-cü maaş" deyilirdi, çünki hər ilin sonunda işçilərə orta aylıq əməkhaqqı məbləğində mükafat verilirdi.

Əmək Məcəlləsində, nə də başqa normativ-hüquqi aktlarda bu cür mükafatların verilməsi barədə heç bir məlumat yoxdur. Ancaq Əmək Məcəlləsinin 185-ci maddəsinə görə Əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilər işəgötürən tərəfindən:

- pul və ya qiymətli əşyalar hədiyyə edilməklə;
- əlavə məzuniyyət verilməklə;
- əməkhaqqına fərdi əlavə edilməklə;
- daha yüksək məbləğdə fərdi sığorta edilməklə;
- sanatoriya-kurort müalicəsi, turist səfərləri yollayışının haqqı ödənilməklə;
- müəyyən edilmiş qaydada dövlət təltifinə təqdim olunmaq barədə vəsatət qaldırmaqla və digər həvəsləndirmə vasitələri ilə mükafatlandırıla bilərlər.

Belə nəticəyə gəlmək olar ki, "13-cü maaşın" verilməsi müəssisə rəhbərliyinin istəyindən asılıdır. Müəssisə "13-cü maaşı" öz istəyi ilə hansı işçiyə istəsə verə bilər. Bir çox hallarda bu mükafatın verilməsi, işçilərin şəxsi nəticələrindən asılı olmayaraq, müəssisənin ilin sonuna olan maliyyə nəticələrindən və imkanlarından asılı olur. Əgər ilin sonuna müəssisə zərər ilə işləyibsə, əlavə mükafatlar verilmir.

Müəssisə və işçilər ilə bağlanılan əmək müqavilələrində, kollektiv müqavilələrdə "ilin sonuna mükafatlandırma" barədə bənd varsa, bu zaman, vəziyyət başqa cür ola bilər. Müəssisə bu zaman "13-cü



maaşı" verə bilər. Çünkü bu barədə əmək müqaviləsində qeyd var və müəssisə öhdəlik götürüb ki, ilin sonunda müəssisənin nəticələrindən asılı olaraq işçilər mükafatlandırılacaqlar. Əgər ilin nəticələrinə görə işçilər mükafat almalıdırlarsa, lakin müəssisə bu mükafatı ödəmirsə, o zaman, işçi məhkəməyə müraciət edərək öz hüquqlarını bərpa edə bilər".

*Ayşən Vəli*

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Dərman qiymətləri məqbul həddə çatacaq”



“Dərman istehsalı zavodu olan “Diamed”in fəaliyyətə başlaması səhiyyə sektorunda çox mühüm bir addımdır. Bu həm dərman preparatlarının qiymətlərinin məqlub həddə gəlməsində, həm də digər yan sahələrin də inkişafından böyük rol oynayacaq”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Müşfiq Məmmədli deyib. Onun sözlərinə görə, əhalinin dərmana olan ehtiyacının ödənilməsi baxımından da zavodun açılışı olduqca əhəmiyyətlidir: “İcbari Tibbi Sığortanın tətbiqi ilə xəstəxanalarda dərman əhaliyə xidmətlər zərfi çərçivəsində pulsuz verilir.

Gələcəkdə ambulator və digər müraciətlərdə dərman preparatlarının İcbari Tibbi Sığorta çərçivəsinə alınmasında mühüm rol oynayacaq. Beləliklə həm yeni iş yerlərinin açılması, həm səhiyyənin inkişafı, həm də bu sahə üzrə mütəxəssislərin yetişməsi baxımından inkişafını təmin edəcək”.

## Neymar: “Əl-Hilal”a keçməklə düzgün qərar verdim”

Braziliya millisinin hücumçusu Neymar "Əl-Hilal"a keçidini şərh edib. Qol.az xəbər verir ki, o, klubun saytına açıqlamasında deyib: "Mən yeni bir hekayə yazmaq istəyirəm. Səudiyyə liqasında heyrətamiz enerji və bacarıqlı oyunçular var. Liqa hazırda sürətlə böyüyür və tələbat var. "Əl Hilal" böyük azarkeşləri olan nəhəng klubdur, Asiyanın ən yaxşısıdır. Bu, mənə belə hiss edir, doğru zamanda düzgün qərar verdiyimi və düzgün kluba keçdiyimi düşünürəm.

Mən qalib gəlməyi və qol vurmağı xoşlayıram. Bunu Səudiyyə Ərəbistanında və "Əl-Hilal"da davam etdirməyi planlaşdırıram". Qeyd edək ki, 31 yaşlı oyunçu dünən "Əl-Hilal"la 2 illik müqavilə imzalayıb.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**